Blok I

SINAQ - 1

RİYAZİYYAT

1. $a = 6^{n+1} \cdot 15^{n+2} \cdot 35^{n+3}$ ədədinin sadə bölənlərinin sayı n olarsa, a ədədinin sadə vuruqlarının sayını tapın.

A) 24 B) 36 C) 48 D) 12 E) 18

2. $y - x = 7$ və $|x + a + 5| + |y + b + 3| = 0$ olarsa, $a - b$ fərqini tapın.

A) –5 B) –2 C) 7 D) 2 E) 5

3. a, b və c natural ədədləri üçün $\frac{a+3}{2} = \frac{b}{5} = c$ olarsa, abc hasilinin ən kiçik qiymətini tapın.

A) 20 B) 30 C) 40 D) 13 E) 16

4. Həm 3-ə, həm də 7-ə bölünən ikirəqəmli natural ədədlərin sayını tapın.

A) 5 B) 4 C) 7 D) 3 E) 6

5. Üçbucağın biri digərindən 2 dəfə böyük olan iki daxili bucağının cəmi 120° olarsa, üçüncü daxili bucağın tənbölənin qarşı tərəflə əmələ gətirdiyi böyük bucağı tapın.

A) 80° B) 135° C) 90° D) 160° E) 110°

6. $\frac{4n-6}{9}$ adi kəsrinin düzgün olması üçün n-in ala biləcəyi natural qiymətlərin cəmini tapın.

A) 2 B) 5 C) 6 D) 4 E) 3

7. İki natural ədədin cəmi 85-dir. Bu ədədlərdən böyüyünü kiçiyinə böldükdə natamam qismətdə 4, qalıqda isə 10 alınır. Ədədlərdən kiçiyini tapın.


A) 25 B) 15 C) 60 D) 24 E) 70

8. 15 oktyabr 2020 tarixində Azərbaycan ordusunun işğaldan azad etdiyi bölgələrin sahəsi hesablandı. Nəticədə həmin ərazinin ölkə sahəsinin 5,5%-ni təşkil etdiyi müəyyən olundu. Qarabağ bölgəsi Azərbaycanın 20%-i olarsa, işğaldan azad edilən ərazilər Qarabağın neçə faizidir?

A) 27,5% B) 25% C) 40% D) 32,5% E) 22,5%

9. a və b düz xətləri A nöqtəsində kəsişir. $x - y$ fərqini tapın.

A) 10° B) 20° C) 30° D) 40° E) 50°



10. Nəmliyi 55% olan 150 t ağac qurudulduqdan sonra kütləsi 90 t oldu. Qurudulmuş ağacın nəmliyi neçə faizdir?

A) 70 B) 40 C) 50 D) 25 E) 65

11. ƏBOB$(a - b; a + b) = 1$ və $\frac{a-b}{a+b} = \frac{15}{21}$ olarsa, $a^2 - b^2$ ifadəsinin qiymətini tapın.

A) 12 B) 21 C) 35 D) 15 E) 30

12. $8 - \sqrt{33}$ ədədinin kəsr hissəsi ilə tam hissəsinin fərqini tapın.

A) 2 B) $6 - \sqrt{33}$ C) $4 - \sqrt{33}$
D) $\sqrt{33}$ E) $\sqrt{33} - 6$

13. Müsbət a, b və c ədədləri üçün $3a = 7b = 4c$ olarsa, $|a - b| + |b - c| + |a - c|$ ifadəsini sadələşdirin.

A) $2a - 2b$ B) $2c - 2b$ C) $2a - 2c$
D) $2a$ E) $-2b$

14. $|x| + x = 0$ və $x^3y < 0$ olarsa, x və y-in işarəsini müəyyən edin.

A) +; – B) –; + C) +; +
D) –; – E) Təyin etmək olmur.

15. $3x^n y^k$ birhədlisinin qüvvəti 15, $5x^{n-k}y$ birhədlisinin qüvvəti isə 6 olarsa, $8x^{2n+k}y^{k+3n}$ birhədlisinin qüvvətini tapın.

A) 28 B) 21 C) 50 D) 60 E) 65

16. İfadəni sadələşdirin:
$(a^2 - 1)(a^2 - a + 1)(a^2 + a + 1)$

A) $a^4 - 1$ B) $a^2 - 1$ C) $a^6 - 1$
D) $a^3 - 1$ E) $a^2 - a - 1$

17. a, b və c müsbət həqiqi ədədləri üçün $b^2 = ac$ və $(a - 4)(a + 4) = a \cdot (2b - c)$ olarsa, $(a - b)$ ifadəsinin ala biləcəyi qiymətlərin hasilini tapın.

A) –4 B) –16 C) 8 D) 0 E) –8

TimeBirlikTeam

18. Şagirdlərin 52%-i qız olan sinifdə oğlanların sayı ən az neçə olar?

A) 10 B) 11 C) 15 D) 13 E) 12

19. Hesablayın: $\frac{5{,}2 \cdot 4 + 3 \cdot 30}{1 - \frac{1}{3}}$


A) 1,2 B) 2,4 C) 3,6 D) 4,8 E) 2,1

20. Uyğun tərəfləri paralel olan α və β və bucaqları üçün $3\alpha + \beta = 200°$ olarsa, α-nın ala biləcəyi qiymətlərin cəmini tapın.

A) 40° B) 45° C) 50° D) 60° E) 65°


21. BD parçasının uzunluğunu tapın.

A) 12
B) 13
C) 14
D) 15
E) 16




22. AD və CE tənbölənlər olarsa, $x + y$ cəmini tapın.

A) 140°
B) 145°
C) 150°
D) 160°
E) 165°



23. Oğulun yaşı atanın yaşının $\frac{1}{7}$ hissəsinə bərabərdir. Oğul atanın indiki yaşına çatanda onların yaşları cəmi 80 olacaq. Atanın indi neçə yaşı var?

24. Diaqramda üç məhlulun tərkibi verilmişdir. Hər üç məhlulu qarışdırdıqda alınan məhlulun duzluluq faizini tapın.




25. $6x^3 + 2x^4 - x + 5$ çoxhədlisinin əmsalları cəmi ilə qüvvətinin hasilini tapın.

26. AB parçası daxilində C, D, E, M və N nöqtələri qeyd olunmuşdur. Alınan parçaların sayını tapın.




27. $a \parallel b$ olarsa, α bucağı üçün uyğunluğu müəyyən edin.


1.



2.



3.




a. $\alpha = 50°$ b. $\alpha = 65°$ c. $\alpha = 115°$
d. $\alpha = 75°$ e. $\alpha = 120°$

T.me/BirlikTeam1

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək

28-30 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Müəyyən sabit sürətlə yolda gedən bir avtomobilin əyləcə basıldıqdan sonra dayanana kimi qət etdiyi məsafə onun həmin anda olan sürəti ilə düz mütənasibdir.



28. Maşının sürəti 80 *km/saat*-dır. Əyləcə basıldıqdan sonra maşın 6 *m* məsafədə dayanmışdır. Əgər 120 *km/saat* sürətlə əyləcə basılsaydı, *BC* məsafəsi neçə metr olardı?


29. Əgər maşın şəkildə verilmiş *AB* məsafəsini 3 saata qət etmişdirsə, *A* və *C* nöqtələri arasındakı məsafə neçə metrdir? (maşının sürəti 80 *km/saat*-dır)

30. *AB* xətti üzrə yol boyunca *A* nöqtəsindən başlayaraq hər 12 *km* aralıqla restoranlar, 15 *km* aralıqla isə yanacaq doldurma məntəqələri yerləşmişdir. Restoran və yanacaq doldurma məntəqəsinin eyni yerə düşdüyü neçə nöqtə var? (*A* və *B* nöqtələrində də restoran və yanacaq doldurma məntəqələri yerləşir)

FİZİKA

31. Vahid zamanda radius vektorunun dönmə bucağına bərabər olan fiziki kəmiyyət necə adlanır?
A) bucaq sürəti B) dövretmə periodu
C) mərkəzəqaçma təcili D) dövretmə tezliyi
E) xətti sürət


32. Sürət-zaman qrafiki verilmiş düzxətli hərəkət edən cismin 4-cü saniyədə getdiyi yolu hesablayın.
A) 8 m B) 2 m C) 14 m
D) 16 m E) 7 m



33. R– radiuslu planetin sərbəstdüşmə təcilini hesablayın (ρ – *planetin sıxlığıdır*).
A) $\frac{1}{3}\pi\rho GR^3$ B) $\frac{4\pi\rho}{3R}G$ C) $\frac{4}{3}\pi\rho RG$
D) $3\pi\rho GR^3$ E) $\frac{\rho GR^3}{4}$

34. Ölçü lenti ilə ölçülür:
A) qüvvə B) təcil C) yerdəyişmə
D) dövretmə tezliyi E) xətti sürət


35. Maddi nöqtənin verilmiş xətti sürətli çevrə üzrə bərabərsürətli hərəkətində mərkəzəqaçma təcilinin dövretmə tezliyindən asılılıq qrafiki hansıdır?



36. Sürət tənliyi $\vartheta_x = 20 - 5t$ (*m/san*) şəklində olan maddi nöqtə dayanana qədər getdiyi yolu tapın.
A) 10 m B) 20 m C) 80 m
D) 40 m E) 5 m


Time/Bilik Team


37. Şəkildəki disklər mərkəzlərindən keçən O_1 və O_2 oxları ətrafında fırlanır. 1, 2 və 3 nöqtələrinin periodları arasında doğru münasibət hansıdır?





A) $v_1 = v_2 < v_3$ B) $v_1 < v_2 < v_3$
C) $v_1 = v_2 = v_3$ D) $v_3 = v_2 < v_1$
E) $v_3 = v_2 > v_1$


38. Sürəti $\vartheta_x = 2 + 5t$ (m/san) tənliyi ilə verilmiş cismin təcilinin proyeksiyasının zamandan asılılıq qrafiki hansıdır?

A) 


B) 

C) 

D) 


E) 

39. Əvəzləyici qüvvənin 2 kq kütləli cismə verdiyi təcilin proyeksiyasını hesablayın.



A) 4 m/san² B) –10 m/san² C) –6 m/san²
D) 10 m/san² E) 6 m/san²

40. A nöqtəsindən şəkildəki kimi üzməyə başlayan üzgüçü qarşı sahilə C nöqtəsindən çıxırsa, B nöqtəsindən üzməyə başlayan üzgüçü qarşı sahilə hansı nöqtədən çıxar (bölgülər arasındakı məsafələr eynidir)?



A) L B) K C) D D) E E) F

41. Saatın saat əqrəbi neçə sutkaya 16 dövr edər?


A) 16 B) 4 C) 8 D) 24 E) 2

42. Diaqrama əsasən hansı nöqtəyə uyğun periodun qiyməti ən böyükdür (a – mərkəzəqaçma təcili, r – çevrənin radiusudur)?



A) 1 B) 2 C) 3 D) 4 E) 5

43. Koordinatının zamandan asılılıq qrafiki şəkildəki kimi olan cisim hərəkət müddətində istiqamətini neçə dəfə dəyişmişdir?



A) 1 B) 2 C) 3 D) 4 E) 5


44. Kütlələri nisbəti $\frac{m_2}{m_1} = 5$ olan cisimlərin qarşılıqlı təsir qüvvələrinin nisbətinin modulunu $(\frac{F_2}{F_1})$ hesablayın.

A) 1 B) 2 C) 0,5 D) 5 E) 0,25

45. Çevrə üzrə bərabərsürətli hərəkət edən maddi nöqtənin dönmə bucağı $\varphi = 5 + 6t$ (rad) qanunu ilə dəyişir. Onun dövretmə periodunu hesablayın ($\pi = 3$).

A) 1 san B) 0,2 san C) 3 san
D) 6 san E) 5 san

46. Düzxətli hərəkət edən cismin koordinat-zaman qrafiki verilmişdir. Hərəkət tənlikləri verilmiş hansı cismə nəzərən bu cismin sürətinin modulu ən kiçikdir?




A) $x = -2 + 3t$ B) $x = 4t$
C) $x = 5 - 2t$ D) $x = -5t + 10$
E) $x = 6t - 8$

47. Cismə təsir edən əvəzləyici qüvvəni 6 dəfə artırdıqda onun təcili necə dəyişər?

A) 3 dəfə artar B) 6 dəfə azalar
C) dəyişməz D) 6 dəfə artar
E) 3 dəfə azalar

Tiner Bilik Team

48. $m_1 = 3\ kq$ və $m_2 = 2\ kq$ kütləli kürələri $F = 40\ N$ qüvvənin təsirilə sürtünməsiz hərəkət edir. İkinci kürənin birinciyə təsir etdiyi qüvvəni hesablayın.



A) 16 N B) 24 N C) 40 N
D) 20 N E) 30 N

49. "?" işarəsinin yerinə hansı fiziki kəmiyyət uyğundur?

$$\frac{\bar{s}}{\otimes} = \bar{\vartheta}$$


$$\Delta = \frac{g\otimes^2}{2}$$

$$? = G \cdot \frac{mM}{(R+\Delta)^2}$$

A) cismin çəkisi
B) qravitasiya sabiti
C) planetin səthindən h hündürlüyündə ağırlıq qüvvəsi
D) planetin səthindən h hündürlüyündə sərbəstdüşmə təcili
E) maksimal qalxma hündürlüyü

50. İki maddi nöqtə arasındakı məsafəni 3 dəfə azaltdıqda, onlar arasındakı qravitasiya qüvvəsinin qiyməti necə dəyişər?
A) 9 dəfə artar B) 4 dəfə azalar C) dəyişməz
D) 4 dəfə artar E) 9 dəfə azalar

51. "?" işarəsinin yerinə hansı fiziki kəmiyyət uyğundur?



A) ağırlıq qüvvəsi B) sərbəstdüşmə təcili
C) gərilmə qüvvəsi D) sıxlıq
E) qravitasiya sabiti

52. 2,4 kq kütləli neftin həcmini hesablayın. ($\rho_{neft} = 800$ kq/m^3, m^3-lə)
A) 0,003 B) 0,03 C) 0,001
D) 3 E) 0,08

53. Verilmiş radiuslu çevrə üzrə bərabərsürətli hərəkətdə cismin bucaq sürəti 2 dəfə artırılır. Bu zaman cismin:
1. xətti sürəti 2 dəfə artar
2. mərkəzəqaçma təcili 4 dəfə artar
3. xətti sürəti dəyişmir
4. dövretmə periodu 2 dəfə artar
5. dövretmə tezliyi 2 dəfə artar
6. mərkəzəqaçma təcili dəyişməz


54. Diametri 80 sm olan təkər 72 km yolda neçə dəfə diyirlənər (π=3)?

55. Nöqtələrin yerinə uyğun gələn ifadələrin ardıcıllığını müəyyən edin.
Cisimlərin Yer və digər planetlər tərəfindən cəzb olunduğu qüvvə ... adlanır. Yerin cazibəsi nəticəsində cismin özünə nəzərən sükunətdə olan dayaq və ya asqıya göstərdiyi təsir qüvvəsinə ... deyilir. ... cismə təsir edən ... təbiətli, ... isə dayağa təsir edən ... təbiətli elastiki qüvvəsidir.
1. elektromaqnit
2. ağırlıq qüvvəsi
3. qravitasiya
4. cismin çəkisi

56. İki məntəqə arasındakı məsafəni 20 m/san sürəti ilə gedib, 30 m/san sürəti ilə qayıdan cismin yola görə orta sürətini təyin edin (m/san).

Time Birlik Team


57. Eyler-Venn diaqramının hissələrinə uyğun ifadələri müəyyən edin.
Pazatlı — hərəkətdə



a. Təcil ədədi qiymətcə sabitdir.
b. Sürət və təcil vektorları arasındakı bucaq 0°-dir.
c. Sürət və təcil vektorları arasındakı bucaq 180°-dir.
d. Zaman keçdikcə sürətin modulu artır.
e. Zaman keçdikcə sürətin modulu azalır.

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 58-60 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Başlanğıc anda sükunətdə olan, 4 kq kütləli cismə şəkildəki kimi iki qüvvə təsir edir.



(Sürtünmə qüvvəsi nəzərə alınmır, $F_1 = 30$ N, $F_2 = 10$ N-dur).

58. Cisim hansı istiqamətdə və necə hərəkət edər (*OX* oxu və ya əksinə). Cavabınızı əsaslandırın.

59. Cismin təcilinin proyeksiyasını hesablayın (*m/san²* ilə).

60. Cismin ilk 10 *san* ərzində yerdəyişməsinin modulunu hesablayın (*km* ilə).

KİMYA

61. X^{+}, Y^{2+}, Z^{2-} ionlarında eyni sayda elektron olduğunu bilərək, X, Y və Z elementlərinin proton sayının azalma ardıcıllığını müəyyən edin.
A) X, Y, Z B) Z, X, Y C) Y, X, Z D) X, Z, Y E) Z, Y, X

62. Hansı maddə atom kristal qəfəsinə malikdir?
A) SiC B) J_2 C) Na_2O D) H_3PO_4 E) P_4


63. Mürəkkəb maddənin *bərk → qaz* çevrilməsi üçün hansı ifadə doğrudur?
A) Sıxlıq artır.
B) Kondensləşmədir.
C) Kimyəvi hadisədir.
D) Molekullar arası məsafə artır.
E) Həcm azalır.

64.

Oksid	Mol sayı	Kütləsi, *q*
X_2O_3	0,1	16

X-in nisbi atom kütləsini müəyyən edin.
$A_r(O)=16$
A) 14 B) 56 C) 32 D) 28 E) 24

65. Y-in nisbi atom kütləsi 40 olarsa, X-in nisbi atom kütləsini müəyyən edin.



A) 35 B) 16 C) 52 D) 48 E) 36

66. 3,2 *q* SO_2 qazı üçün hansı ifadələr doğrudur? $M_r(SO_2)=64$ (N_A – Avoqadro ədədidir)
1. Həcmi 1,12 litrdir (n.ş.).
2. 0,1 moldur.
3. $0,1N_A$ sayda oksigen atomu var.
A) yalnız 1 B) 1, 3 C) 2, 3
D) yalnız 3 E) yalnız 2

t.me/Birlik_Team1

67.

Elektron formulu	Dövri sistemdə mövqeyi
X	3-cü dövr VIA qrupu

A) $...3s^23p^3$ B) $...3s^23p^4$ C) $...3s^23p^5$
D) $...3d^24s^2$ E) $...3s^23p^1$

68. X_2S_3 birləşməsində kükürdün kütlə payı 48% olarsa, X-in nisbi atom kütləsini hesablayın. $A_r(S)=32$
A) 52 B) 32 C) 12 D) 56 E) 24

69.

İon	Proton sayı	Elektron sayı
X^n	$a+3$	$a+6$

n-i müəyyən edin.
A) +2 B) –2 C) +3 D) +4 E) –3

70.

					X		
		Y			Z		

X, Y, Z elementlərinin reduksiyaedicilik qabiliyyətinin artması ardıcıllığını müəyyən edin.
A) Y, Z, X B) Z, Y, X C) X, Z, Y
D) X, Y, Z E) Y, X, Z

71.

Hadisələr	
Fiziki hadisə	Kimyəvi hadisə
X	Y

1. qıcqırma 2. qaynama
3. elektroliz 4. ərimə
X və Y-i müəyyən edin.
A) X- 1, 3, Y-2, 4 B) X- 2, 3 , Y-1, 4
C) X- 2 , Y-1, 3, 4 D) X- 2, 4 , Y-1, 3
E) X- 1, 2 , Y-3, 4

72.

Maddə	Ərimə temperaturu, °C	Qaynama temperaturu, °C
X	25	70
Y	10	55
Z	95	213

60°C-də maddələrin aqreqat halını müəyyən edin.

X	Y	Z
A) maye	qaz	bərk
B) qaz	maye	maye
C) qaz	maye	bərk
D) bərk	qaz	maye
E) maye	bərk	qaz

73. 10 *mol* N_2O-da olan molekul sayını hesablayın.
A) $6{,}02\cdot10^{23}$ B) $6{,}02\ 10^{24}$ C) $1{,}204\ 10^{24}$
D) $3{,}01\cdot10^{23}$ E) $3{,}01\ 10^{24}$

74. Ekzotermik prosesi müəyyən edin.
A) qurğuşunun əriməsi
B) yodun sublimasiyası
C) suyun buxarlanması
D) əhəngdaşının parçalanması
E) su buxarının kondensləşməsi

75. İon rabitəli birləşməni göstərin.
A) CO B) H_2S C) H_2O D) $CaCl_2$ E) CS_2

76. Elektron formulu verilmiş elementlərdən hansıları metaldır?
1. $...3s^23p^3$ 2. $...3s^23p^1$
3. $...3d^24s^2$ 4. $...3s^23p^5$
A) 1, 2 B) yalnız 2 C) 2, 3
D) 1, 3 E) yalnız 4

77. $S^0 \rightarrow S^{2-}$ sxemi üçün nə doğrudur?
1. Radius artır.
2. Nüvənin yükü artır.
3. Nüvənin yükü azalır.
A) 1, 2 B) yalnız 1 C) yalnız 2
D) 1, 3 E) yalnız 3

78. Hansı sırada yalnız polyar kovalent rabitəli maddələr verilmişdir?
A) S_8, P_4, O_3 B) HCl, H_2O, CO_2
C) HCl, NaCl, KH D) BaO, Cl_2, $ZnCl_2$
E) NH_3, CaO, H_2

t.me/BilikTeam1

Blok I

79. Hansı sxem üzrə baş verən reaksiya endotermikdir?

A) $C + O_2 \rightarrow$ B) $H_2 + O_2 \rightarrow$ C) $N_2 + O_2 \rightarrow$
D) $P + Cl_2 \rightarrow$ E) $Ca + S \rightarrow$

80. NO (I), NH_3 (II), SO_2 (III) qazlarının sıxlıqlarının (n.ş) artma ardıcıllığını müəyyən edin.
$A_r(N)=14$, $A_r(O)=16$, $A_r(S)=32$, $A_r(H)=1$

A) II, I, III B) I, III, II C) II, III, I
D) III, I, II E) III, II, I

81. $2H_2 + O_2 \rightarrow 2H_2O + 572\ kC$
2,24 *l* (n.ş) hidrogenin tam yanması zamanı neçə *kC* istilik ayrılar?

A) 286 B) 57,2 C) 28,6 D) 143 E) 14,3

82. X və Y-i müəyyən edin.

1. qaynama temperaturu 2. qeyri-metallıq 3. sıxlıq 4. reduksiyaedicilik	
Fiziki xassələr	Kimyəvi xassələr
X	Y

A) X - 1, 2, Y-3, 4 B) X - 2, 4, Y- 1, 3
C) X - 1, 3, Y- 2, 4 D) X - 1, 2, 3, Y- 4
E) X - 1, 4, Y- 2, 3

83. H_3PO_4 molekulundakı elektronların sayı PH_3 molekulundakı elektron sayından neçə vahid çoxdur? ($_1H$, $_{15}P$, $_8O$)

84. 2 *mol* N_2 və 2 *mol* O_2 qazları qarışığının orta molekul kütləsini (*q/mol*) hesablayın.
$M_r(N_2)=28$, $M_r(O_2)=32$

85.

Maddə	Kovalent rabitələrin sayı	İon rabitələrin sayı
$Al_2(SO_4)_3$	*m*	*n*

müqayisə müəyyən edin.

86. Oksigenə görə nisbi sıxlığı 2 olan qazın 0,1 molunun kütləsini hesablayın. $M_r(O_2)=32$

87. Uyğunluğu müəyyən edin.

Qarışıqlar	*Ayrılma üsulu*
1. su+şəkər	a. süzmə
2. su+etil spirti	b. buxarlandırma
3. su+maye yağ	c. distillə
	d. durultma
	e. kristallaşdırma

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 88-90 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Camal əsas yarımqrupda yerləşən naməlum X elementinin atom quruluşunu öyrənərkən onun 3 energetik səviyyəsinin olduğunu və sonuncu təbəqədə 6 elektronun yerləşdiyini müəyyən etdi.

88. X-in dövri sistemdə mövqeyini müəyyən edin.

89. X-in valent elektronlarının sayını müəyyən edin.

90. X^{6+} ionundakı elektronların sayı $_{15}P^{3-}$ ionundakı elektronların sayından neçə vahid azdır?

Time Birlik Team1

SINAQ - 2

RİYAZİYYAT

1. $\frac{x+2}{3}+\frac{x+4}{5}>6$ bərabərliyindən x-in ala biləcəyi ən kiçik tam qiyməti tapın.

A) 10 B) 7 C) 8 D) 9 E) 11

2. $\begin{cases} x\sqrt{y}=1 \\ y\sqrt{z}=3 \\ z\sqrt{x}=9 \end{cases}$ tənliklər sistemindən xyz hasilini tapın.

A) 27 B) 9 C) 3 D) 1 E) 18

3. $\sqrt{a}=1+\frac{1}{a}$ olarsa, $a^2-a-\sqrt{a}$ ifadəsinin qiymətini tapın.

A) 6 B) 1 C) 4 D) 5 E) 3

4. Düzgün çoxbucaqlının daxili bucaqlarının cəmi 1800^0, perimetri 96 *sm*-dir. Bu çoxbucaqlının tərəfini tapın.

A) 6 sm B) 8 sm C) 9 sm
D) 12 sm E) 16 sm

5. $\frac{\sqrt{13}}{\sqrt{13}-\sqrt{11}}-\frac{\sqrt{11}}{\sqrt{13}+\sqrt{11}}$ ifadəsini sadələşdirin.

A) $2+2\sqrt{143}$ B) 12 C) $\sqrt{143}$
D) $12-\sqrt{143}$ E) 1

6. 80%-li duz məhlulun 10 *litr* su əlavə etdikdə 75%-li məhlul alınır. Məhlulun əvvəlki miqdarını tapın.

A) 100 *l* B) 120 *l* C) 150 *l*
D) 160 *l* E) 180 *l*

7. $|x|\cdot(x+3)>0$ bərabərsizliyini həll edin.

A) $(0;+\infty)$ B) $(-3;+\infty)$ C) $(-\infty;0)$
D) $(-\infty;-3)$ E) $(-3;0)\cup(0;+\infty)$

8. $\begin{cases} x+y=5 \\ x^2+y^2=29+2xy \end{cases}$ tənliklər sistemindən xy hasilini tapın.

A) –4 B) 4 C) 9 D) 1 E) –1


9. $x^2+(m-2n)x+n=0$ tənliyinin kökləri x_1 və x_2 olarsa, $\frac{1}{x_1}+\frac{1}{x_2}$ ifadəsini m və n parametrləri ilə ifadə edin.

A) $2-\frac{m}{n}$ B) $2-\frac{2m}{n}$ C) $2-\frac{n}{m}$
D) $3-\frac{m}{n}$ E) $\frac{m}{n}$

10. $\sqrt{12-x}=|x|$ tənliyinin kökləri fərqinin modulunu tapın.

A) 4 B) –3 C) 3 D) –4 E) 7

11. Diaqramda natural a ədədinin müxtəlif sadə vuruqları və onların sayı verilmişdir. a-nın natural bölənlərinin sayını tapın.



A) 6760 B) 5760 C) 4410
D) 3240 E) 5184

12. $x=\sqrt{2}$, $y=\sqrt{3}$, $z=\sqrt{5}$ olarsa, $\sqrt{7{,}5}$-i ifadə edin.

A) $\frac{xy}{z}$ B) $\frac{yz}{x}$ C) $\frac{x}{yz}$ D) $\frac{xz}{y}$ E) $\frac{y}{xz}$

13. $A=\{-9;-5;-4;-2;2;6;7;8\}$ çoxluğundan seçilmiş iki ədədin hasili ən az neçə ola bilər?

A) –45 B) –72 C) –18
D) –40 E) –63

14. $\begin{cases} \frac{3}{x}-\frac{3}{y}=6 \\ \frac{1}{x}+\frac{1}{y}=3 \end{cases}$ sistemindən $\frac{1}{x^2}-\frac{1}{y^2}$ ifadəsinin qiymətini hesablayın.

A) 18 B) 9 C) 6 D) 2 E) 3

T.me/Birlikteamt

15. $\frac{\sqrt{a}+\sqrt{a^2}+\sqrt{a^3}+\sqrt{a^4}}{(\sqrt{a}+1)\cdot(a+1)}$ ifadəsini sadələşdirin.

A) $\sqrt{a}+a$ B) $a\sqrt{a}$ C) $\sqrt{a}$
D) $a+1$ E) $\sqrt{a}+1$

16. $|x-3|<-2$ bərabərsizliyinin həllər çoxluğunu tapın.

A) $\emptyset$ B) $(-\infty;2)$ C) $(-\infty;+\infty)$
D) $(2;+\infty)$ E) $(2;11)$

17. Tərəfi 12 *sm* olan bərabərtərəfli üçbucağın daxilinə çevrə çəkilmişdir. Bu üçbucağın çevrədən xaricdə qalan hissəsinin sahəsini hesablayın.


A) $36\sqrt{3}-12\pi$ B) $30-25\pi$ C) $48-16\pi$
D) $72-18\pi$ E) $42-24\pi$

18. m və n parametrlərinin hansı qiymətində aşağıdakı sistemin sonsuz sayda həlli var?

$$\begin{cases}3x+(m+2)y+5=0\\(n-3)x-2y+4=0\end{cases}$$


A) $m=3{,}6;\ n=5{,}2$ B) $m=-2{,}4;\ n=1{,}6$
C) $m=-4{,}5;\ n=5{,}4$ D) $m=3;\ n=4{,}8$
E) $m=5{,}7;\ n=-2{,}6$

19. $AC=BE$ olarsa, verilənlərə görə x-i tapın.




A) 15^0 B) 75^0
C) $22{,}5^0$ D) $67{,}5$ E) $57{,}5^0$

20. Şəklə əsasən AD-ni tapın.



A) 6 B) 8 C) 10
D) 12 E) 14

21. $ABCD$ düzbucaqlısında $AE=ED=12$, $DF=FC=9$ olarsa, MN parçasının uzunluğunu tapın.




A) 5
B) 10
C) 15
D) 20
E) 25

22. $\begin{cases}4x^2+24y+9=0\\9y^2+12x+16=0\end{cases}$ tənliklər sistemindən $x+y$ cəmini tapın.

A) $-2\frac{5}{6}$ B) $\frac{3}{4}$ C) $-1\frac{2}{3}$ D) $\frac{1}{2}$ E) 1


23. Şəklə əsasən $\angle EAD$-ni tapın.



24. $x^2-32x+4=0$ tənliyinin kökləri x_1 və x_2 olarsa, $\frac{1}{\sqrt{x_1}}+\frac{1}{\sqrt{x_2}}$ ifadəsinin qiymətini tapın.

25. Ədədi silsilədə $S_5=40$ və $4a_1=a_3$ olarsa, a_1-i tapın.

26. Şəkildə verilmiş üçbucağın daxilinə çəkilmiş çevrənin radiusunu tapın.



27. İlk n həddinin cəmi S_n, ümumi həddi a_n olan ardıcıllıqlar üçün uyğunluğu müəyyən edin.

1. $S_n+S_{n-1}=26,\ a_n=10$
2. $S_n+S_{n-1}=45,\ a_n=13$
3. $S_n+S_{n-1}=22,\ a_n=12$

a. $S_{n-1}=16$ b. $S_n=17$ c. $S_{n-1}=8$
d. $S_n=18$ e. $S_n=29$

Time/Birlik Team1

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 28-30 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

2019-2020 təhsil ili üçün universitet tələbələrinin sayı haqqında məlumat cədvəldə verilmişdir.
Ö – ödənişli əsaslarla təhsil
DS – dövlət sifarişi əsasında təhsil

		K	U	R	S
		I	II	III	IV
Yerli	Ö	300 0	400 0	m	250 0
vətəndaşlar	DS	x	500	150 0	500
Xarici	Ö	800	y	400	400
vətəndaşlar	DS	200	50	100	n

28. Yerli birinci kurs tələbələri arasında dövlət sifarişi əsasında təhsil alanların sayının ödənişli əsaslarla təhsil alanların sayından $33\frac{1}{3}\%$ az olduğunu bilərək, ümumi birinci kurs tələbələrinin sayını tapın.


29. Universitetdə 20000 tələbədən 15050-nin ödənişli əsaslarla təhsil aldığı məlumdursa, ümumi dördüncü kurs tələbələrinin sayını tapın.

30. Universitetdə keçirilən konfransda II və III kurs tələbələrinin hamısı iştirak etmişdir. İştirakçılar içərisindən 500 nəfər təqdimat vermişdir. Təqdimat verən tələbələrin sayı II və III kurs tələbələrinin cəmi sayının hansı hissəsini təşkil edir?

FİZİKA

31. Hansı qanun *"Kiçik deformasiyalarda mexaniki gərginlik nisbi uzanma ilə düz mütənasibdir"* kimi ifadə olunur?
A) Paskal qanunu
B) Bernulli qanunu
C) Ümumdünya cazibə qanunu
D) Huk qanunu
E) Nyutonun I qanunu

32. Bərabər kütləli iki maye eyni qızdırıcı ilə qızdırılır. Mayelərin xüsusi buxarlanma istiliklərini (L) və xüsusi istilik tutumlarını (c) müqayisə edin.




A) $L_1 > L_2; c_1 > c_2$ B) $L_1 < L_2; c_1 < c_2$
C) $L_1 > L_2; c_1 < c_2$ D) $L_1 < L_2; c_1 > c_2$
E) $L_1 = L_2; c_1 > c_2$


33. Hansı fiziki kəmiyyətin vahidi BS-də əsas vahiddir?
A) mexaniki gərginliyin B) maddə miqdarının
C) konsentrasiyanın D) daxili enerjinin
E) səthi gərilmə əmsalının

34. Nisbi rütubət ölçülür:
A) kalorimetrlə B) psixrometrlə
C) manometrlə D) areometrlə
E) barometrlə

35. Doyan su buxarının təzyiqinin həcmidən asılılıq qrafiki hansıdır (T = const)?



36. Qapalı sistemdə bir-birinə toxunmuş bircins kürələr verilmişdir. Hansı kürələr arasında istilik mübadiləsi baş verir?




A) 1 və 2 B) 2 və 3 C) 1 və 3
D) yalnız 2 E) yalnız 1

37. Sistemə 120 *kC* istilik miqdarı verilmiş və onun üzərində xarici qüvvələr 40 *kC* iş görmüşdür. Bu prosesdə sistemin daxili enerjisi:

A) 80 *kC* artmışdır B) 80 *kC* azalmışdır
C) 160 *kC* artmışdır D) 160 *kC* azalmışdır
E) dəyişməmişdir

38. Buzun temperatur-zaman qrafiki verilmişdir. Buzun yalnız əriməsinə sərf olunan zaman fasiləsi nəyə bərabərdir?



A) 22 dəq B) 20 dəq C) 7 dəq D) 5 dəq E) 3 dəq

39. İstilik vermənin hansı növü vakuumda da baş verir?

A) yalnız şüalanma B) yalnız konveksiya
C) yalnız istilikkeçirmə
D) istilikkeçirmə və şüalanma
E) konveksiya və istilikkeçirmə


40. Kapilyar borunun radiusunu 2 dəfə artırdıqda onda qalxan mayenin hündürlüyü:

A) 2 dəfə artar B) 2 dəfə azalar C) dəyişməz
D) 4 dəfə artar E) 4 dəfə azalar

41. Xarici təzyiqin hansı qiymətində suyun qaynama temperaturu daha yüksəkdir?

A) 70 *kPa* B) 50 *kPa* C) 90 *kPa* D) 40 *kPa* E) 100 *kPa*

42. Diaqramın hansı nöqtəsi ən kiçik sıxlıqlı mayeyə uyğundur (h – maye sütununun hündürlüyü, p – mayenin təzyiqidir)?



A) 1 B) 2 C) 3 D) 4 E) 5

43. Normal atmosfer təzyiqində buzun ərimə temperaturu nə qədərdir?

A) 50°C B) 40°C C) 30°C D) 10°C E) 0°C

44. Nə qədər daş kömür yandıqda 270 *MC* istilik miqdarı ayrılar ($q = 2{,}7 \cdot 10^7\ C/kq$)?

A) 30 kq B) 15 kq C) 20 kq D) 25 kq E) 10 kq


45. Kapilyar borunun diametrini 2 dəfə artırdıqda onda qalxan mayenin hündürlüyü:

A) 2 dəfə artar B) 2 dəfə azalar
C) dəyişməz D) 4 dəfə artar
E) 4 dəfə azalar

46. Kondensatorun bir lövhəsinin yükü $q_1 = +q$, o birinin yükü isə $q_2 = -q$-dür. Kondensatorun yükü nə qədərdir?

A) –q B) q C) 2q D) –2q E) 0

47. Eyni ölçülü qablarda müxtəlif temperaturlu su vardır. Hansı qabda suyun buxarlanma sürəti ən kiçikdir?




A) 1 B) 2 C) 3 D) 4 E) bütün qablarda eynidir

48. Cismin kütləsini 2 dəfə azaltsaq, ona təsir edən ağırlıq qüvvəsi:

A) 4 dəfə artar B) 4 dəfə azalar C) dəyişməz
D) 2 dəfə artar E) 2 dəfə azalar

49. Doymuş buxarın halının dəyişməsi diaqramına əsasən (ϱ; V) hansı ifadələr doğrudur (ϱ – doymuş buxarın sıxlığı, V – həcmidir)?




Doymuş buxarın:

1. təzyiqi artır 2. kütləsi artır
3. temperaturu artır 4. təzyiqi dəyişmir
5. kütləsi dəyişmir 6. temperaturu dəyişmir

A) 2, 4, 6 B) 1, 2, 6 C) 3, 4, 5
D) 1, 2, 3 E) 1, 3, 5

Fizika Bilik Team


50. Düzxətli hərəkət edən cisimlərin koordinat-zaman qrafikləri verilmişdir. Cismin sürətini hesablayın.



A) 1 m/san B) 2 m/san C) 6 m/san
D) 8 m/san E) 9 m/san

51. Skalyar fiziki kəmiyyət hansıdır?
A) sürət B) gedilən yol
C) yerdəyişməyə görə orta sürət
D) təcil E) yerdəyişmə

52. υ_0 sürəti ilə şaquli istiqamətdə yuxarı atılmış cisim ən yüksək nöqtədə iki qəlpəyə parçalanır. Qəlpələrin başlanğıc sürətləri nisbəti $\upsilon_1/\upsilon_2=2$ olarsa, onların başlanğıc kinetik enerjilərinin E_{k1}/E_{k2} nisbətini hesablayın (havanın müqaviməti nəzərə alınmır).



A) 1 B) 2 C) 4 D) 0,5 E) 0,25

53. Açar sözlərdən hansı ardıcıllıqla istifadə etməklə mətni tamamlamaq olar (açar sözlərin bəzilərinə şəkilçi əlavə etməklə də istifadə etmək olar)?
Açar sözlər:
1. konservativ qüvvə 2. vəziyyət
3. ağırlıq qüvvəsi 4. trayektoriya


___ işi cismin hərəkət trayektoriyasının formasından asılı deyil, o, cismin başlanğıc və son nöqtələrinin ___ asılıdır. Gördüyü iş cismin hərəkət asılı olmayan qüvvələr ___ adlanır. Deməli ___ də ___ .

54. 2 m uzunluğunda məftilin nisbi uzanması 0,002-dir. Məftilin mütləq uzanmasını hesablayın. (*sm*-lə)

55. 6 m^3 havada 72 *q* su buxarı var. Havanın mütləq rütubətini hesablayın (q/m^3 ilə).

56. 19°C-də 6 m^3 havada 72 *q* su buxarı var. Havanın nisbi rütubətini hesablayın (%-lə, 19°C-də doymuş su buxarının sıxlığı 16 q/m^3-dir).

57. Gərilmə diaqramına əsasən uyğunluğu müəyyən edin.



1. Huk qanununun ödənildiyi hissədir
2. Elastiklik həddinə uyğundur
3. Möhkəmlik həddinə uyğundur


a. OA hissəsi b. AB hissəsi c. A nöqtəsi
d. B nöqtəsi e. E nöqtəsi

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 58-60 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Fizika dərsi zamanı müəllim, təcrübə aparmaq üçün, qabda olan buz parçasını, işlək vəziyyətdə olan qızdırıcının üzərinə yerləşdirdi.

58. Buzun *qızdırılması* və *əridilməsi* zamanı molekullarının orta kinetik enerjisi necə dəyişər?

59. Buzun temperaturunun onun aldığı istilik miqdarından asılılıq qrafiki verilmişdir. Qrafikə əsasən buzun əriməsi zamanı aldığı istilik miqdarını hesablayın (*k*C ilə).



60. Əridilmiş buzun kütləsi neçə qramdır (λ=350 kC/kq)?

Tələbə Birlik Klubu

KİMYA

61. Etilen və benzol üçün doğru olan ifadələri müəyyən edin.
1. Bromlu suyu rəngsizləşdirir
2. Molekulundakı bütün karbon atomları sp^2 hibrid vəziyyətindədir
3. 1 molunun həcmi (n.ş-də) 22,4 litirdir.
A) 1, 2 B) 2, 3 C) yalnız 2 D) 1, 3 E) yalnız 3

62. Etanal→etanol sxemi üçün hansı ifadələr doğrudur?
1. Siqma rabitələrin sayı 2 vahid artır.
2. Karbon atomlarının sayı azalır.
3. Karbon atomunun hibridləşmə vəziyyəti sp^2-dən sp^3-ə keçir.
A) yalnız 1 B) 1, 3 C) 1, 2 D) yalnız 2 E) 2, 3

63.

Karbohidrogen	Molekulunda siqma rabitələrin ümumi sayı	Nisbi molekul kütləsi
Alkan	16	x

x-ı müəyyən edin. $A_r(C)=12$, $A_r(H)=1$
A) 72 B) 44 C) 58 D) 86 E) 30

64. İzopren molekulunda sp^3 hibrid vəziyyətində olan karbon atomlarının sayı ümumi karbon atomlarının sayının neçə faizini təşkil edir?
A) 25 B) 20 C) 40 D) 30 E) 50

65. Molekulunda bir karbon atomuna bir üçlü butil və bir izopropil radikalı birləşən alkanın Beynəlxalq adını müəyyən edin.
A) 2,2,4-trimetilpentan B) 2,3-dimetilpentan
C) 2,3-dimetilbutan D) 2,3,4-trimetilheksan
E) 2,3,4-trimetilpentan

66. Alkenlər üçün doğru **olmayan** ifadəni müəyyən edin.
A) Molekulunda 1π(pi) rabitə var.
B) Birləşmə reaksiyası xarakterikdir.
C) Hidratlaşdıqda spirt alınır.
D) Bromlu suyu rəngsizləşdirir.
E) Polimerləşmir.

67.

Maddə	Nisbi molekul kütləsi	1 molunun tam yanmasından alınan suyun mol sayı
Alken	70	x

x-ı müəyyən edin. $A_r(C)=12$, $A_r(H)=1$
A) 4 B) 6 C) 3 D) 7 E) 5

68. Hansı reaksiya üzrə spirt *alınmır*?
A) $CO + 2H_2 \xrightarrow{t,p,kat}$
B) $C_2H_2 + H_2O \xrightarrow{t,Hg^{2+}}$
C) $C_5H_{11}Cl + KOH(suda) \longrightarrow$
D) $C_2H_4 + H_2O \xrightarrow{t,H_2SO_4}$
E) $CH_3-\overset{\overset{O}{\|}}{C}-H + H_2 \xrightarrow{t,kat}$

69. Molekulunda 2π (pi)rabitəsi olan maddələri müəyyən edin .
1. buten–2 2. vinilasetilen
3. divinil 4. izopren
A) 1, 2 B) 2, 4 C) 1, 3 D) 3, 4 E) 1, 4

70. Butan və asetilendən ibarət 6 mol qarışığın tam hidrogenləşməsinə 4 mol H_2 sərf olunmuşdur. Qarışıqdakı butanın mol sayını müəyyən edin.
A) 4 B) 3 C) 5 D) 2 E) 1

71. 11,2 *l* (n.ş) etanın tam yanmasından neçə litr karbon qazı əmələ gələr?
A) 5,6 B) 11,2 C) 4,48 D) 44,8 E) 22,4

72.

Maddə	Molekulunda σc-c rabitələrinin sayı	HCl ilə Markovnikov qaydası üzrə raksiyaya daxilolur
Alken	4	+

Alkeni müəyyən edin.
A) propen B) buten-1 C) buten-2
D) penten-1 E) penten-2

İmeBilikTeam

73. Fenol üçün hansı ifadələr doğrudur?
1. Adi şəraitdə bərk haldadır.
2. Qələvilərlə reaksiyaya daxil olmur.
3. Br_2 ilə əvəzetmə reaksiyasına daxil olur.
A) 1, 2 B) 2, 3 C) yalnız 2 D) yalnız 1 E) 1, 3

74. $2CH_3OH \xrightarrow{t<140^0C, H_2SO_4} X + H_2O$
reaksiyasında X maddəsi üçün hansı ifadələr doğrudur?
1. Sadə simmetrik efirdir
2. Siniflərarası izomeri etil spirtidir
3. Mürəkkəb efirdir
A) yalnız 2 B) yalnız 3 C) yalnız 1 D) 2, 3 E) 1, 2

75. Propin üçün hansı ifadələr doğrudur?
1. Molekulunda 6 siqma rabitə var
2. Bütün karbon atomları sp hibrid vəziyyətindədir
3. Hidratlaşmasından aldehid alınır
4. Bromlu suyu rəngsizləşdirir
A) 2, 3 B) 1, 4 C) 1, 3 D) 2, 4 E) 3, 4

76. 1,2-dibrombutana Zn metalı ilə təsir etdikdə alınan karbohidrogenin adını müəyyən edin.
A) butin–1 B) butin–2 C) propen
D) buten-1 E) buten–2


77. Hansı reaksiyalar ***getmir***?
1. $HC{\equiv}C{-}CH_3 + Ag_2O \longrightarrow$
2. $CH_3{-}CH_2{-}CH_3 + H_2 \longrightarrow$
3. $HC{\equiv}CH + Na \xrightarrow{NH_3}$
4. $CH_3{-}C{\equiv}C{-}CH_3 + Na \xrightarrow{NH_3}$
A) 1, 2 B) 2, 3 C) 2, 4 D) 1, 3 E) 3, 4

78. Hansı reaksiyadan etilen ***alınmır***?
1. $CaC_2 + H_2O \rightarrow$ 2. $CH_2Br{-}CH_2Br + Zn \rightarrow$
3. $CH_3{-}CH_2Cl + NaOH_{(spirt)} \rightarrow$ 4. $CH_3{-}CH_2Cl + Na \rightarrow$
A) 1. 4 B) 1, 2 C) 2, 4 D) 2, 3 E) 3, 4

79. C_nH_{2n-2} formuluna malik olan karbohidrogeni müəyyən edin.
A) C_3H_8 B) C_5H_{10} C) C_7H_8 D) C_2H_2 E) C_6H_6


80. Buten-1-in HBr ilə reaksiyasından hansı birləşmə alınır?
A) 2-brombuten-1 B) 2-brombutan
C) 1-brombutan D) 2,2-dibrombutan
E) 3-brombuten-1

81. $CaC_2 + 2H_2O \rightarrow Ca(OH)_2 + X$
X- maddəsi üçün hansı ifadələr doğrudur?
1. Molekulunda 2π (pi)rabitə var.
2. Bromlu suyu rəngsizləşdirir.
3. Molekulunda 6 atom var.
A) yalnız 2 B) yalnız 3 C) 1,2 D) 2,3 E) 1,3

82.

reaksiyası üçün hansı ifadələr doğrudur?
1. Birləşmə reaksiyasıdır
2. Heksoxlorbenzol alınır
3. Əvəzetmə reaksiyasıdır.
A) yalnız 1 B) yalnız 3 C) 2, 3 D) 1, 2 E) 1, 3

83. 44,8 *litr* (n.ş) asetilendən neçə *qram* benzol almaq olar? $Mr(C_6H_6)=78$

84. .



Alkanların homoloji sırasında aqreqat halının qazdan mayeyə dəyişməsi sərhəddində yerləşən *X* və *Y* maddə molekullarında atomların ümumi sayını müəyyən edin.

85. 3 *mol* K_3PO_4 duzunun tam elektrolitik dissosiasiyasından cəmi neçə mol ion əmələ gəlir?

Ilmi Birlik Team

86. Əsasi oksidləri göstərin.

1. Al_2O_3 2. CO_2 3. Cu_2O
4. NO 5. MgO

87. Uyğunluğu müəyyən edin.
$CuSO_4$ duzunun suda məhlulunun elektrolizi zamanı alınan maddələr üçün uyğunluğu müəyyən edin.

1. katodda
2. anodda
3. məhlulda

a. H_2
b. O_2
c. $Cu(OH)_2$
d. H_2SO_4
e. Cu

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 88-90 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Müəllim qaz aparan vasitəsilə birləşdirilimiş iki kolbadan birincisinə Al_4C_3 əlavə edir.Daha sonra içərisində Al_4C_3 olan kolbaya su əlavə etdikdə həmin kolbada ağ rəngli çöküntünün ,ikinci kolbada isə qazın ayrıldığını müşahidə edir.Müəllim bu qazın tam xlorlaşmasından alınan X maddəsindən həlledici kimi istifadə olunduğunu qeyd edir.

88. X maddəsinin kimyəvi formulunu və beynəlxalq adını yazın.

89. İçərisində Al_4C_3 olan kolbaya su əlavə etdikdə baş verən reaksiyanın tənliyini yazın və əmsallaşdırın.

90. 0,2 *mol* X maddəsi almaq üçün neçə *litr* (n.ş) xlor lazımdır? (Praktiki çıxım 40%)

SINAQ - 3

RİYAZİYYAT

1. $|AB| = a$, $|BC| = b$, $|CD| = c$ düzbucaqlı paralelipedin üç müxtəlif uzunluqlu tilləridir. AD parçasının uzunluğunu tapın.

A) $\sqrt{a^2+b^2}$ B) $\sqrt{a^2+c^2}$ C) $\sqrt{a^2+b^2+c^2}$
D) $\sqrt{a^2+b^2-c^2}$ E) $\sqrt{a^2-b^2+c^2}$

2. $z = 3+bi$ verilmiş kompleks ədəd, $z \cdot \bar{z} = 10$ olarsa, b-nin ala biləcəyi qiymətlərinin cəmini tapın.

A) 1 B) –1 C) 0 D) 2 E) –2


3. $y = \ln x + e^x$ funksiyasının $x_0 = 1$ nöqtəsində çəkilmiş toxunanının bucaq əmsalını tapın.

A) e B) 1 C) 2 D) $1+e$ E) $2+e$

4. $\lim\limits_{x \to \infty} \left(\frac{3x^2+6x}{5x+x^2}\right)$ limitini hesablayın.

A) $\frac{3}{5}$ B) $\frac{6}{5}$ C) $\frac{1}{3}$ D) 3 E) $\frac{5}{6}$

5. Dairəvi diaqramda yarmarkada gün ərzində satılmış meyvələrin faizlə diaqramı verilmişdir. Ümumi satılan meyvələrin 33%-ni alma, 30%-ni nar, 25%-ni portağal, 12%-ni isə armud təşkil edir. Cəmi 200 *kq* meyvə satıldığı məlumdursa, satılan almanın miqdarının digər meyvələrin miqdarından neçə kq az olduğunu tapın.



A) 52 B) 64 C) 68 D) 32 E) 36

6. $\log_5 7 = a$ olarsa, $\log_7 35$ neçə olar?

A) $\frac{a}{a+2}$ B) $\frac{a-1}{a}$ C) $\frac{a+1}{a}$

D) $\frac{a+3}{a}$ E) $\frac{a}{a-1}$

t.me/Bilikteam1

7. $A = 9!$ olarsa, $11! + 10! - 9!$ ifadəsini A ilə ifadə edin.

A) 90A B) 119A C) 120A
D) 91A E) 95A


8. $8^{x-1} = 2^{x+1}$ olarsa, 2^x-i hesablayın.

A) –8 B) –4 C) 0 D) 2 E) 4

9. 590 ədədi 2; 5; 7 ədədləri ilə tərs mütənasib hissələrə bölünmüşdür. Alınmış ədədlərdən ən böyüyünü tapın.

A) 100 B) 250 C) 360 D) 350 E) 240

10. $(A \setminus B) + (A \cap B)$ çoxluğu aşağıdakılardan hansına bərabərdir?



A) $A \cap B$ B) $A \cup B$ C) A D) $B \setminus A$ E) $\emptyset$

11. $(-3)^2 - [(-13 + 5) : (-4) + 3]^2 = ?$

A) 4 B) 1 C) –4 D) –2 E) –16

12. $\begin{cases} x + 2y = 10 \\ 3x - y = 2 \end{cases}$ tənliklər sistemindən x-i tapın.

A) 4 B) 8 C) 2 D) 7 E) 3


13. $\frac{a}{b} = \frac{c}{d} = \frac{2}{3}$ olarsa, $\left(\frac{a-b}{b}\right) \cdot \left(\frac{c-d}{d}\right) = ?$

A) $\frac{3}{8}$ B) $\frac{8}{9}$ C) $\frac{4}{9}$ D) $\frac{1}{9}$ E) $\frac{5}{6}$

14. $\frac{1}{4}$ hissəsi ilə $\frac{1}{3}$ hissəsinin cəmi 35 olan ədədi tapın.

A) 60 B) 75 C) 40 D) 45 E) 90

15. $AB = 8$ *sm*, $DE = 4$ *sm*, $BE = 10$ *sm*, $EC = 6$ *sm*, $\angle BAC = \angle DEC$ olarsa, $AD = ?$



A) 4 B) 6 C) 9 D) $\frac{15}{2}$ E) $\frac{13}{2}$

16. $\frac{a}{b} + \frac{b}{a} = 8$ olarsa, $\frac{a^2}{b^2} + \frac{b^2}{a^2}$ ifadəsini tapın.

A) 62 B) 54 C) 57 D) 81 E) 79


17. İlk n həddinin cəmi $S_n = 6n - n^2$ düsturu ilə verilən ardıcıllığın 4-cü həddini tapın.


A) –1 B) 4 C) 9 D) –3 E) 8


18. Hesablayın: $\frac{1 - \sqrt{2} + \sqrt{3} - \sqrt{6}}{1 - \sqrt{2}}$


A) $1 - \sqrt{2}$ B) $1 + \sqrt{2}$ C) $1 + \sqrt{3}$
D) $\sqrt{3} - 1$ E) $1 - \sqrt{3}$


19. $y = \log_{0,2} x$ funksiyasının qrafikini göstərin.

A) 

B) 

C) 

D) 

E) 

20. $a = \sin 47°$, $b = \cos 47°$ və $c = \operatorname{tg} 47°$ ədədlərini müqayisə edin.

A) $a < b < c$ B) $b < a < c$ C) $c < a < b$
D) $a < c < b$ E) $b < c < a$

21. Tərəfləri 5, 12, 13 olan üçbucağın kiçik tərəfinin ətrafında fırlanmasından alınan cismin həcmini tapın. ($\pi = 3$ qəbul edin.)

A) 820 B) 900 C) 720 D) 500 E) 884

22. $9^x + 2 \cdot 3^x - 3 = 0$ tənliyini həll edin.

A) 1 B) 0 C) 2 D) $\frac{1}{3}$ E) –1


t.me/Birlikteam1

23. Cədvəldəki ədədlərin neçə faizi rasionaldır?


$\sqrt{5}$	$\frac{\sqrt{32}}{\sqrt{2}}$	$\sqrt[4]{81}$	$\sqrt{20}-2\sqrt{5}$	π
$\sqrt{3}+\sqrt{12}$	$\frac{\sqrt{45}}{\sqrt{3}}$	$\sqrt{12}\cdot\sqrt{3}$	$\sqrt{4}$	e
$\frac{\sqrt{5}}{\sqrt{125}}$	$8\frac{5}{6}$	$\sqrt{8}-2\sqrt{2}$	$(\sqrt{7})^2$	$\sqrt{3}$

24. Radiusu 8 olan dairənin 90°-li sektorunun sahəsini tapın. ($\pi = 3$ qəbul edin.)

25. Çevrələr arasındakı ən qısa məsafəni tapın.



26. Şəkildə verilmiş $y = kx + b$ xətti funksiyasının qrafiki (5;12) nöqtəsindən keçərsə, $k + b$ cəmini tapın.




27. Uyğunluğu müəyyən edin:

1. $(5a+1)^2-(4a+b)^2$	a. $(a+b+1)\cdot(9a-b+1)$
2. $(3a+b)^2-(a+1)^2$	b. $(a-b+1)\cdot(9a+b+1)$
3. $(4a+b)^2-1$	c. $(2a+b-1)\cdot(4a+b+1)$
	d. $(4a+b-1)\cdot(4a+b+1)$
	e. $(2a+b+1)\cdot(4a+b+1)$

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 28-30 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Evin mətbəxi üçün alınmış soyuducu hündürlükləri 150 sm və 50 sm olan alt və üst bölmələrdən ibarətdir. Soyuducu düzgün dördbucaqlı prizma şəklindədir.



28. Soyuducunun ümumi tutumu 0,5 m^3 olarsa, onun oturacağının tərəfinin uzunluğunu tapın.

29. Soyuducuya yığılması üçün alınan 100 qazlı içki alt bölməyə yerləşdiriləcək. Hər qazlı içkiyə neçə sm^3 yer düşər?

30. Alınmış içkilərin bəziləri 0,5 *litrlik*, bəziləri isə 1 *litrlikdir*. Təsadüfi seçilmiş bir içkinin 0, 5 *litrlik* olması ehtimalı $\frac{2}{5}$ olarsa, 1 *litrlik* içkilərin sayını tapın.

T.me/BirlikTeam1


FİZİKA

31. Ədədi qiymətcə vahid zamanda naqilin en kəsiyindən keçən elektrik yükünün miqdarına bərabərdir:
A) cərəyan şiddəti B) gərginlik
C) müqavimət D) elektrik tutumu
E) xüsusi müqavimət

32. Ardıcıl birləşdirilmiş iki kondensatorun ümumi tutumu 4 *mkF*-dır. Birinci kondensatorun tutumu 12 *mkF* olarsa, ikinci kondensatorun tutumu nə qədərdir?
A) 1 mkF B) 3 mkF C) 8 mkF
D) 6 mkF E) 7 mkF

33. $\frac{V \cdot san^2}{m^2}$ -ifadəsi hansı fiziki kəmiyyətin vahidinə uyğundur?
A) elektrik tutumunun
B) elektrik müqavimətinin
C) xüsusi yükün
D) elektrokimyəvi ekvivalentin
E) xüsusi müqavimətin


34. 1 cərəyanlı naqilin maqnit sahəsi tərəfindən 2 cərəyanlı naqilinə təsir edən Amper qüvvəsi hansı istiqamətdə yönəlmişdir (*naqillər eyni müstəvidə yerləşmişdir*)?



A) ↗ B) ↙ C) ↑
D) ↓ E) $F = 0$


35. İfratkeçiricidən cərəyan keçərkən hansı hadisə müşahidə olunur?
A) maddə daşınması
B) maddənin ionlaşması
C) ifartkeçiricinin qızması
D) ifratkeçiricinin soyuması
E) maqnit sahəsinin yaranması

36. Kütləsi 3 *kq* olan cismə F, N təsir edən qüvvənin zamandan asılılıq qrafiki verilmişdir. Şəklə əsasən 2-ci saniyənin sonunda cismin sürətini hesablayın($v_0=0$).




A) 1 *m/san* B) 2 *m/san* C) 4 *m/san*
D) 6 *m/san* E) 0

37. Sxemə əsasən voltmetrin göstərişi 24 *V*, ampermetrin göstərişi isə 5 *A*-dir. *R* müqaviməti neçə *Om*-dur?



A) 12 B) 10 C) 6 D) 5 E) 4


38. Manometrin bir bölgüsünün qiyməti neçə *kPa*-dır?



A) 40 B) 10 C) 15 D) 50 E) 20

39. Anodla katod arasındakı potensiallar fərqi 300 *V*-dan 2700 *V*-a qədər artsa, katoddan qopan elektronun sürəti necə dəyişər? ($v_0 = 0$)
A) 9 dəfə artar B) 9 dəfə azalar
C) 3 dəfə artar D) 3 dəfə azlar
E) Dəyişməz

40. Verilmiş bloklar sistemi tarazlıqdadır. $m_1 = 3$ *kq* olarsa, $m_2 + m_3$ hesablayın.




A) 3 kq
B) 6 kq
C) 9 kq
D) 10 kq
E) 12 kq

Tərəf/Birlik Təəm

41. Saatın saniyə əqrəbinin uzunluğu 15 *sm*-dir. 60 saniyə ərzində əqrəbin uc nöqtəsinin getdiyi yol yerdəyişmədən nə qədər çoxdur? ($\pi = 3$).

A) 15 sm B) 30 sm C) 90 sm D) 60 sm E) 45 sm

42. Başlanğıc sürəti 10 m/san olan cismin 6-cı saniyənin sonunda sürəti nə qədər olar?



A) 22 m/san B) 34 m/san
C) 24 m/san D) 12 m/san E) 32 m/san

43. Cisim 30 *m/san* sürətlə şaquli yuxarı atılır. Onun 6 saniyədə getdiyi yolu tapın. (g=10 *m/san*^{2})

A) 0 B) 45m C) 90 m D) 30 m E) 60 m

44. Kondensator sabit gərginlik mənbəyindən açılmışdır. Kondensatorun lövhələri arasına dielektrik nüfuzluğu 8 olan mühit daxil etsək, onun elektrik sahəsinin intensivliyi necə dəyişər?

A) dəyişməz B) 8 dəfə azalar C) 8 dəfə artar
D) 64 dəfə artar E) 64 dəfə azalar

45. Daş şaquli yuxarı v_0 sürəti ilə atılmışdır. Həmin daşın başlanğıc sürətini 3 dəfə artırsaq, tam enerjisi necə dəyişər?

A) dəyişməz B) 3 dəfə artar C) 3 dəfə azalar
D) 9 dəfə artar E) 9 dəfə azalar


46. Kütləsi 200 q olan cismin hərəkət tənliyi $x = 2 + 3t$ şəklindədir. t = 3 saniyə zaman müddətində impulsun dəyişməsini tap

A) 0,6 $\frac{kq \cdot m}{san}$ B) 0 $\frac{kq \cdot m}{san}$ C) 1,6 $\frac{kq \cdot m}{san}$
D) 6 $\frac{kq \cdot m}{san}$ E) 3 $\frac{kq \cdot m}{san}$

47. İş prinsipi termoelektron emissiya hadisəsinə əsaslanan cihaz hansıdır?

A) yarımkeçirici diod B) fotorezistor
C) termistor D) elektron şüa borusu
E) rezistor


48. Verilmiş kütləli ideal qazın daxili enerjisi və istilik miqdarı üçün Eyler-Venn diaqramında uyğun bəndləri qeyd edin.



1. İzotermik prosesdə dəyişmir.
2. Skalyar kəmiyyətdir.
3. Ölçü vahidi couldur.
4. Adiobat prosesdə sıfırdır.

A) X 1 , Y 2, 4, Z 3 B) X3, 4 ,Y 1 , Z 2
C) X 1 ,Y 2, 3 , Z 4 D) X 2 ,Y 1, 4,Z 3
E)X 4 ,Y2, 3 , Z 1

49. $AB = 3BC$ olarsa, A nöqtəsində bircins elektrik sahəsinin potensialını hesablayın.




A) 12 V B) 14 V C) 24 V D) 22 V E) 8 V

50. Ampermetrin mütləq xətasını tapın.



A) 0,5 B) 0,25 C) 2 D) 1 E) 4

51. Elektroliz zamanı 10 saniyə ərzində katodda 4,5 *mq* maddə ayrılmışdır. Cərəyan şiddətinin zamandan asılılıq qrafikinə əsasən maddənin elektrokimyəvi ekvivalentini hesablayın.




A) 0,3 $\frac{mq}{Kl}$ B) 1,67 $\frac{mq}{Kl}$ C) 3,33 $\frac{mq}{Kl}$
D) 2,2 $\frac{mq}{Kl}$ E) 0,6 $\frac{mq}{Kl}$

İmtahan Birlik Kitabı

41. Saatın saniyə əqrəbinin uzunluğu 15 *sm*-dir. 60 saniyə ərzində əqrəbin uc nöqtəsinin getdiyi yol verdəyişmədən nə qədər çoxdur? ($\pi = 3$).

A) 15 sm B) 30 sm C) 90 sm D) 60 sm E) 45 sm

42. Başlanğıc sürəti 10 *m/san* olan cismin 6-cı saniyənin sonunda sürəti nə qədər olar?



A) 22 m/san B) 34 m/san
C) 24 m/san D) 12 m/san E) 32 m/san

43. Cisim 30 *m/san* sürətlə şaquli yuxarı atılır. Onun 6 saniyədə getdiyi yolu tapın. (g=10 m/san^2)

A) 0 B) 45m C) 90 m D) 30 m E) 60 m

44. Kondensator sabit gərginlik mənbəyindən açılmışdır. Kondensatorun lövhələri arasına dielektrik nüfuzluğu 8 olan mühit daxil etsək, onun elektrik sahəsinin intensivliyi necə dəyişər?

A) dəyişməz B) 8 dəfə azalar C) 8 dəfə artar
D) 64 dəfə artar E) 64 dəfə azalar

45. Daş şaquli yuxarı v_0 sürəti ilə atılmışdır. Həmin daşın başlanğıc sürətini 3 dəfə artırsaq, tam enerjisi necə dəyişər?

A) dəyişməz B) 3 dəfə artar C) 3 dəfə azalar
D) 9 dəfə artar E) 9 dəfə azalar


46. Kütləsi 200 q olan cismin hərəkət tənliyi $x = 2 + 3t$ şəklindədir. t = 3 saniyə zaman müddətində impulsun dəyişməsini tap

A) 0,6 $\frac{kq \cdot m}{san}$ B) 0 $\frac{kq \cdot m}{san}$ C) 1,6 $\frac{kq \cdot m}{san}$
D) 6 $\frac{kq \cdot m}{san}$ E) 3 $\frac{kq \cdot m}{san}$

47. İş prinsipi termoelektron emissiya hadisəsinə əsaslanan cihaz hansıdır?

A) yarımkeçirici diod B) fotorezistor
C) termistor D) elektron şüa borusu
E) rezistor


48. Verilmiş kütləli ideal qazın daxili enerjisi və istilik miqdarı üçün Eyler-Venn diaqramında uyğun bəndləri qeyd edin.



1. İzotermik prosesdə dəyişmir.
2. Skalyar kəmiyyətdir.
3. Ölçü vahidi couldur.
4. Adiobat prosesdə sıfırdır.

A) X 1 , Y 2, 4, Z 3 B) X3, 4 ,Y 1 , Z 2
C) X 1 ,Y 2, 3 , Z 4 D) X 2 ,Y 1, 4,Z 3
E)X 4 ,Y2, 3 , Z 1

49. $AB = 3BC$ olarsa, A nöqtəsində bircins elektrik sahəsinin potensialını hesablayın.




A) 12 V B) 14 V C) 24 V D) 22 V E) 8 V

50. Ampermetrin mütləq xətasını tapın.



A) 0,5 B) 0,25 C) 2 D) 1 E) 4

51. Elektroliz zamanı 10 saniyə ərzində katodda 4,5 *mq* maddə ayrılmışdır. Cərəyan şiddətinin zamandan asılılıq qrafikinə əsasən maddənin elektrokimyəvi ekvivalentini hesablayın.




A) 0,3 $\frac{mq}{Kl}$ B) 1,67 $\frac{mq}{Kl}$ C) 3,33 $\frac{mq}{Kl}$
D) 2,2 $\frac{mq}{Kl}$ E) 0,6 $\frac{mq}{Kl}$

t.me/Birlik_Nam1

52. $\frac{Sl_0\sigma^2}{2E}$ ifadəsi ilə hansı fiziki kəmiyyət təyin edilir (l_0 – məftilin başlanğıc uzunluğu, S – məftilin en kəsiyinin sahəsi, σ – mexaniki gərginlik, E – Yunq modulu)?

A) sərtlik
B) elastiklik qüvvəsi
C) potensial enerji
D) nisbi uzanma
E) mütləq uzanma

53. 2 *kq* isti su ilə 1 *kq* soyuq suyu qarışdırdıqda qərarlaşmış temperaturu hesablayın.
(cavabı °*C* ilə ifadə edin).




54. Digər təsirlər nəzərə alınmadıqda proton elektrik sahəsində $\varphi_1 = 30$ *V* olan nöqtədən $\varphi_2 = 50$ *V* olan nöqtəyə hərəkət etdikdə:
1. Sahənin gördüyü iş 20 *eV* olar.
2. Sahənin gördüyü iş –20 *eV* olar.
3. Protonun potensial enerjisi 20 *eV* azalar.
4. Protonun potensial enerjisi 20 *eV* artar.
5. Protonun kinetik enerjisi 20 *eV* artar.
6. Protonun kinetik enerjisi 20 *eV* azalar.

55. Açar sözlərdən hansı ardıcıllıqla istifadə etməklə mətni tamamlamaq olar (açar sözlərin bəzilərinə şəkilçi əlavə etməklə istifadə etmək olar)?
Açar sözlər: 1 – daxili enerji, 2 – istilik mübadiləsi, 3 – temperatur, 4 – sıxlıq, 5 – həcm.
İzotermik prosesdə verilmiş kütləli ideal qazın ____ dəyişməsi sıfırdır. İzotermik sıxılma zamanı ideal qazın ___ dəyişmir, ___ artır, ___ isə azalır. Adiobat proses ___ olmayan sistemlərdə gedən prosesdir.

56. Hansı ifadələr doğrudur?
1. Elektrik yüklərini toplamaq üçün istifadə edilən qurğu elektroskopdur.
2. Elektrik yüklərini toplamaq üçün istifadə edilən qurğu kondensatordur.
3.Kondensatorun köynəkləri qiymətcə və işarəcə eyni yüklə yüklənir.
4. Kondensatorun köynəkləri qiymətcə bərabər, işarəcə əks yüklə yüklənir.
5. Kondensatorun köynəkləri nazik dielektrik qatı ilə ayrılır.


57. Uyğunluğu müəyyən edin. Silindrdə porşen altında olan su buxarının izotermik sıxılması zamanı onun halının dəyişməsi (p; V) diaqramında verilmişdir (p – təzyiq, V – həcmdir, AB əyrisi hiperboladır).



1. AB hissəsində 2. BC hissəsində 3. CD hissəsində
a. yalnız buxar mövcuddur
b. yalnız maye mövcuddur
c. buxarın kütləsi azalır
d. mayenin kütləsi artır
e. buxar sıxlığı artır

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 58-60 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

*Şagirdin laboratoriyada yığdığı dövrənin sxemi aşağıdakı kimidir ($U = 60$ *V*).*



58. Yalnız rezistoru qızdırdıqda lampaların parlaqlığı necə dəyişər? Cavabınızı əsaslandırın.

59. Rezistorun 100°C-də müqaviməti 14 *Om* olarsa, 500°C-də nəyə bərabərdir (Cavabı Om ilə ifadə edin, $\alpha = 0{,}004$ K^{-1})?

60. Termistoru qızdırsaq, lampaların parlaqlığı necə dəyişər?

Imer Birlik Team

KİMYA

61.

Maddələr	I	F_2	C
H_2	1	2	3
O_2	4	5	6

Hansı maddələr arasında reaksiya mümkündür?

A) 2, 4, 5, 6 B) 1, 2, 3, 6 C) 2, 3, 5, 6
D) 1, 2, 3, 4 E) 2, 3, 4, 6

62.

Maddə	Termiki parçalanmasından alınan maddələrin sayı	
	Bəsit	Mürəkkəb
I. $KMnO_4$	1	2
II. KNO_3	1	1
III. FeS_2	2	0

Hansı doğrudur?

A) I, III B) yalnız II C) II, III
D) yalnız III E) I, II

63. $Fe + H_2SO_{4(qatı)} \longrightarrow Fe_2(SO_4)_3 + X + Y$

X və Y-i müəyyən edin.

A) X-S ,Y-H2 B) X-H2S,Y-H2O C) X-SO2,Y-H2
D) X-H2S,Y-H2 E) X-SO2,Y-H2O


64. 8 *q* O_2 və 4 *q* H_2-nin qarşılıqlı təsirindən neçə *qram* su alınar? $A_r(O)=16$, $A_r(H)=1$.

A) 9 B) 11 C) 4 D) 12 E) 8

65. 6 *mol* oksigendən maksimum neçə *mol* ozon almaq mümkündür?

A) 3 B) 4 C) 6 D) 8 E) 5

66. Eyler-Venn diaqramına uyğun olanları müəyyən edin.



1. $3ZnO + 2NH_3 \rightarrow 3Zn + N_2 + 3H_2O$
2. $Al + 4HNO_3 \rightarrow Al(NO_3)_3 + NO + 2H_2O$
3. $N_2 + O_2 \rightarrow 2NO$
4. $2NO_2 + 2NaOH \rightarrow NaNO_3 + NaNO_2 + H_2O$
5. $N_2 + 3Ca \rightarrow Ca_3N_2$


A) I-4, 5, II-2, III-1, 3 B) I-2, 5, II-1, 4, III-3
C) I-2, 5, II-4, III-1, 3 D) I-5, II-3, 4, III-1, 2
E) I-1, 2,II-4, III-3, 5

67. Hansı duzların suda məhlulunun elektrolizi zamanı katodda metal alınır?

1. $CuSO_4$ 2. Na_2SO_4 3. KNO_3 4. $AgNO_3$

A) 1, 4 B) 2, 3 C) 1, 3 D) 2, 4 E) 3, 4

68.



reaksiyasından alınan alkenin beynəlxalq nomenklatura ilə adı:

A) 2-metilbuten-2 B) 3-metilbuten-2
C) 3-metilbuten-1 D) 2-metilbuten-1
D) 2-metilbuten-3

69. Hansı maddə kükürdlə reaksiyaya daxil *olmur*?

A) F_2 B) Na C) qatı H_2SO_4
D) J_2 E) duru HNO_3

70.

Duz	Parçalanma məhsullarının kütləsi (q)	
	CO_2	XO
XCO_3	11	14

X-i müəyyən edin. $A_r(C)=12$, $A_r(O)=16$

A) ^{56}Fe B) ^{52}Cr C) ^{64}Cu D) ^{24}Mg E) ^{40}Ca

71.

Duz	Tam parçalanma məhsulları
XNO_3	$X + NO_2 + O_2$

X-in qatı HNO_3 ilə qarşılıqlı təsirindən hansı qaz alınır?


A) NO B) NO_2 C) N_2O D) H_2 E) N_2

T.me/BirinkTeam1

72. Hansı reaksiyada duru turşu götürülmüşdür?

A) $Ca + H_2SO_4 \longrightarrow H_2 + ...$
B) $Zn + H_2SO_4 \longrightarrow S + ...$
C) $Na + H_2SO_4 \longrightarrow H_2S + ...$
D) $Fe + H_2SO_4 \longrightarrow H_2O + ...$
E) $Cu + H_2SO_4 \longrightarrow SO_2 + ...$

73.



x-i hesablayın. $A_r(Fe)=56$

A) 2,24 B) 5,6 C) 4,48 D) 33,6 E) 11,2

74. Ammonyak hansı maddələrlə reaksiyaya daxil ***olmur***?

I. CO_2 II. KOH III. CuO IV. H_3PO_4

A) yalnız III B) II, III C) I, IV
D) I, III, IV E) yalnız II

75. $CaCl_2$ ərintisinin elektrolizi zamanı anodda 5,6 *l* (n.ş.) xlor ayrılmışdır. Katodda ayrılan metalın kütləsini (q) hesablayın. $A_r(Ca)=40$

A) 10 B) 20 C) 15 D) 80 E) 6

76. Hansı maddə xlorid turşusu ilə reaksiyaya daxil olur?

A) $NaNO_3$ B) Cu C) CO_2 D) K_2SO_4 E) MgO

77. Hansı xassə kristallik kükürdə aid ***deyil***?

A) yüksək elektrik keçiriciliyi B) sarı rəng
C) zəif istilik keçiriciliyi D) asan əriməsi
E) suda həll olmaması

78.

Maddə	Molekulunda		
	atomların sayı	rabitələrin sayı	neytronların sayı
Ağ fosfor	x	y	z

x, y və z-i müəyyən edin ($^{31}_{15}P$).

A) X-4,Y-5,Z-60 B) X-4,Y-4,Z-60 C) X-6,Y-6,Z-64
D) X-2,Y-3,Z-32 E) X-4,Y-6,Z-64

79. 44,8 *l* (n.ş.) generator qazının yandırılmasına 5,6 *l* (n.ş.) oksigen sərf olunmuşdur. Generator qazının tərkibində həcmcə neçə faiz CO olmuşdur?

A) 50 B) 20 C) 25 D) 40 E) 75

80. 1. $Ba(OH)_2 + XO_2 \longrightarrow BaXO_3 + H_2O$
2. $NaOH + XO_2 \longrightarrow Na_2XO_3 + H_2O$
3. $NaOH + XO_2 \longrightarrow NaXO_3 + NaXO_2 + H_2O$
4. $H_2O + XO_2 \xrightarrow{t} HXO_3 + XO$

X elementinin karbon və azot olduğu reaksiyaların tənliklərini müəyyən edin.

	Karbon	Azot
A)	2, 3	1, 4
B)	1, 3	2, 4
C)	1, 2	3, 4
D)	1, 4	2, 3
E)	3, 4	1, 2


81. Hansı reaksiya baş ***vermir***?

A) $KJ + Cl_2 \longrightarrow$ B) $KBr + Cl_2 \longrightarrow$
C) $KCl + F_2 \longrightarrow$ D) $KF + Cl_2 \longrightarrow$
E) $KJ + Br_2 \longrightarrow$

82. Normal şəraitdə 40 *l* ammonyakın tam katalitik oksidləşməsinə neçə *litr* oksigen sərf olunar?

A) 50 B) 25 C) 44 D) 80 E) 60

83. Mis(II)nitratın suda məhlulunun elektrolizində məhsulların mol sayının zamandan asılılıq qrafikinə əsasən x-i müəyyən edin.



84. Hansı maddələr oksigenlə reaksiyaya daxil ***olmur***?

1. Cu 2. Cl_2 3. Ag 4. N_2 5. F

85. Molekulunda 4 karbon atomu olan doymuş alifatik aldehidin nisbi molekul kütləsini hesablayın.
$A_r(C)=12$, $A_r(H)=1$, $A_r(O)=16$

86. Hansı reaksiyaların məhsullarında dəmirin valentliyi üçdür?
1. $Fe + H_2SO_4(duru) \longrightarrow$ 2. $Fe + HCl \longrightarrow$
3. $Fe + Cl_2 \xrightarrow{t}$ 4. $Fe + H_2SO_4(qatı) \xrightarrow{t}$
5. $Fe + HNO_3(qatı) \xrightarrow{t}$

87. Uyğunluğu müəyyən edin.

Reaksiyadan alınan qaz	*Reaksiyaya daxil olan maddələr*
1. H_2	a. $MnO_2 + HCl$
2. Cl_2	b. $Na + HNO_3$
	c. $Mg + H_2SO_{4(duru)}$
	d. $K_2O + HCl$

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 88-90 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Müəllim X duzunun tərkibini müəyyən etmək üçün əvvəlcə onu suda həll etdi və alınan məhlulu 2 hissəyə ayırdı. Məhlulun birinci hissəsi üzərinə KOH məhlulu əlavə etdikdə kəskin iyli qaz, ikinci hissəsinin üzərinə $AgNO_3$ məhlulu əlavə etdikdə ağ rəngli çöküntünün alındığını müşahidə etdi.

88. X duzunun kimyəvi formulunu və adını yazın.


89. Məhlulun birinci hissəsinin üzərinə KOH məhlulu əlavə etdikdə baş verən reaksiyanın tənliyini yazın və bütün əmsalların cəmini müəyyən edin.

90. 100 *q* 10,2 %-li $AgNO_3$ məhlulu ilə tamamilə reaksiyaya daxil olan X duzunun miqdarını (*mol*) hesablayın. $M(AgNO_3)=170$

SINAQ - 4

RİYAZİYYAT

1. Şəkildə mərkəzi O_1 nöqtəsində olan çevrə üzərində AB və CD diametrləri çəkilmişdir. $A(-2; 3)$, $B(6; -5)$ və $C(3; 5)$ nöqtələrinə əsasən, $D(x; y)$ nöqtəsinin koordinatları cəmini tapın.




A) –3 B) 3 C) –5 D) –6 E) –2


2. I. 19° II.109° III. 62° IV. 135° V. 113° bucaqlarından hansılar kəsişən iki müstəvi arasındakı bucaq ola ***bilməz***?
A) II, III, IV B) II, IV, V C) III, IV, V
D) I, IV, V E) I, III, IV


3. Rombun tərəfi 12 *sm*, iti bucağı 45°-dir. Onun daxilinə çəkilmiş dairənin sahəsini tapın.
A) 12π sm² B) 16π sm² C) 18π sm²
D) 24π sm² E) 36π sm²


4. $(m + m^{-1} + 2) : (m - m^{-1})$ ifadəsini sadələşdirin.
A) $\frac{m}{m+1}$ B) $\frac{m+1}{m-1}$ C) $\frac{m}{m-1}$ D) $\frac{m-1}{m+1}$ E) $\frac{1}{m}$


5. Hansı funksiya qrafiki ola bilər?

A)


B)



C)


D)


E)


Ime/Bilik Team1

6. Şəkildə, $ABCD$ kvadrat, DEC isə bərabərtərəfli üçbucaq olarsa, $\angle ABE$ bucağını tapın.



A) 40° B) 15° C) 20° D) 10° E) 30°

7. $x^2 + 2x - 1 = 0$ tənliyinin kökləri x_1 və x_2 olarsa, $2\sqrt{x_2^2} + \sqrt{(x_1 - x_2)^2} - 4\sqrt{x_1^2}$ ifadəsinin qiymətini tapın. $(x_1 < 0)$

A) 1 B) –1 C) 4 D) –6 E) 6

8. $A = (8^4 + 1)(8^2 + 1)(8 + 1)$ olduğuna görə, $7A + 1$ ifadəsinin qiymətini tapın.

A) 8^6 B) 8^7 C) 8^8 D) 8^9 E) 8^{10}

9. $(a-4)^3 + 6(a-4)^2 + 12(a-4) + 8$ ifadəsi aşağıdakılardan hansına bərabərdir?

A) $(a-4)^2$ B) $(a-2)^3$ C) $a-4$ D) $a-2$ E) 8

10. $2^n = a$ və $7^n = b$ olarsa, $392^n = ?$

A) a^3b^2 B) a^2b^3 C) a^2b^2 D) a^3b^3 E) ab

11. Bərabəryanlı trapesiyanın yan tərəfi 12 *sm*, iti bucağı 60°-dir. Trapesiyanın kiçik oturacağı 4 *sm* olarsa, onun sahəsini tapın.

A) 64 sm² B) 72 sm² C) 36 sm² D) $30\sqrt{3}$ sm² E) $60\sqrt{3}$ sm²

12. a parametrinin hansı müsbət qiymətində $|4x - a| = 3$ tənliyinin kökləri qarşılıqlı tərs ədədlərdir?

A) 5 B) 11 C) 6 D) 13 E) 9

13. Trapesiyanın oturacaqları 12 *sm* və 30 *sm*-dir. Orta xəttin diaqonalları arasında qalan parçanın uzunluğunu tapın.

A) 9 sm B) 8 sm C) 10 sm D) 6 sm E) 7 sm

14. "?" işarəsinin yerinə uyğun olanı müəyyən edin.

$\boxed{\frac{x^2-4x}{x-2}} \xrightarrow{+} \boxed{\frac{4}{x-2}} \xrightarrow{\equiv} \boxed{?}$

A) $x+2$ B) $x-2$ C) $\frac{1}{x-2}$ D) $\frac{1}{x+2}$ E) $\frac{x-2}{x+2}$

15. Hesablayın: $\frac{(y+6)^2}{y^2+6y} + \frac{(y-6)^2}{y^2-6y}$

A) $\frac{y}{6}$ B) $\frac{y-6}{y+6}$ C) 2 D) $\frac{y}{y-2}$ E) 1

16. $\frac{1}{3}\sqrt{50} - \frac{1}{6}\sqrt{32}$ ədədinin kəsr hissəsini tapın.

A) $2-\sqrt{2}$ B) $\sqrt{3}-1$ C) $\sqrt{5}-2$ D) $\sqrt{2}-1$ E) $1-\sqrt{2}$

17. $\frac{tg50° + tg10°}{1 - tg50° \cdot tg10°}$ ifadəsinin qiymətini hesablayın.

A) $\sqrt{3}$ B) 0 C) $\frac{\sqrt{3}}{3}$ D) 1 E) $\frac{\sqrt{2}}{2}$

18. $x^2 + 2xy + 4y^2 + A$ ifadəsi ikihədlinin kvadratı olarsa, hansı birhədli A-ya bərabər ola ***bilməz***?

A) $2xy$ B) $-6xy$ C) $-3y^2$ D) $6xy$ E) $-\frac{3}{4}x^2$

19. $\sin\left(\pi - \arccos\left(\frac{1}{2}\right)\right) = ?$

A) $\frac{1}{2}$ B) $\frac{\sqrt{3}}{2}$ C) $-\frac{\sqrt{3}}{2}$ D) $-\frac{1}{2}$ E) $\frac{\sqrt{2}}{2}$

20. $sin5x = cos55°$ tənliyinin ən kiçik müsbət həllini tapın.

A) 3° B) 5° C) 7° D) 9° E) 11°

21. İki zəri bir dəfə atdıqda düşən xallar cəminin 11 olması ehtimalını tapın.

A) $\frac{1}{2}$ B) $\frac{1}{36}$ C) $\frac{1}{12}$ D) $\frac{1}{6}$ E) $\frac{1}{18}$

Tmer Birlik Team

22. $F(x)$ funksiyası $f(x) = 2x + 1$ funksiyasının ibtidai funksiyası və $F(0) = 2$ olarsa, $F(x) < 0$ bərabərsizliyini həll edin.

A) $(-1; 1)$ B) $(-2; 1)$ C) $\emptyset$
D) $(-1; 2)$ E) $(1; 2)$

23. Həndəsi silsilədə $b_4 - b_2 = 36$, $b_3 - b_1 = 9$ olarsa, silsilə vuruğunu tapın.

24. $3 : \frac{2}{3} + 0{,}5 - 5$ ifadəsinin qiymətini tapın.

25. $f(x) = 2x^2 - 6x + 5$ funksiyasının təpə nöqtəsinin koordinatları cəmini tapın.

26. $z = \frac{1 - \sqrt{3}\,i}{1 + \sqrt{3}\,i}$, $z \cdot \overline{z} = ?$

27. Bir tərəfinin uzunluğu verilən düzgün altıbucaqlılar üçün uyğunluğu müəyyən edin.


1. $a = 4$
2. $a = 5$
3. $a = 6$.

a. $R = 5$
b. $r = 2\sqrt{3}$
c. $R = 3$
d. böyük diaqonalı 12-dir.
e. kiçik diaqonalı 5-dir

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 28-30 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Qrafikdə avtomobilin yol boyu çənindəki yanacağın miqdarı göstərilmişdir.





28. Hərəkətə başladıqdan neçə *km* məsafə gedildikdən sonra çəndə 20 *litr* yanacaq qalmışdır?

29. Yanacaq doldurma məntəqəsi yolun 550-ci km-də yerləşir. Avtomobilin yanacağı bitdiyi üçün yolun 480-ci km-də dayanmışdır. Sürücü qalan yolu sürəti 50 *km/saat* olan yük maşınında gedib 100 *litr* yanacaq alıb həmin maşında geri qayıtmağa neçə *saat* sərf edər?

30. Avtomobilin sürəti 100 *km/saat* olarsa, alınmış yanacaqla daha neçə *saat* yol gedə bilər?

T.me/BirlikTeam1

FİZİKA

31. Elektrolitdən cərəyan keçərkən elektrodlar üzərində maddə toplanması prosesidir:
A) elektrolitik dissosiasiya
B) rekombinasiya C) kondensasiya
D) desublimasiya E) elektroliz

32. $\overrightarrow{\upsilon_0}$ sürəti ilə şaquli istiqamətdə yuxarı atılmış cismin uçuş müddəti hansı ifadə ilə təyin olunur (g – sərbəstdüşmə təcilidir)?
A) $\frac{\upsilon_0}{2g}$ B) $\frac{2g}{\upsilon_0}$ C) $\frac{2\upsilon_0}{g}$ D) $\frac{g}{2\upsilon_0}$ E) $\frac{\upsilon_0 g}{2}$


33. $\frac{Pa\cdot m^2}{kq}$ ifadəsi hansı fiziki kəmiyyətin vahidinə uyğundur?
A) qüvvənin B) enerjinin
C) qravitasiya sahəsinin intensivliyinin
D) impulsun E) sürətin

34. Potensiallar fərqini ölçmək üçün istifadə edilən cihaz hansıdır?
A) psixrometr B) barometr C) elektrometr
D) hiqrometr E) manometr

35. Vilson kamerasında vahid uzunluqdakı damcıların sayına görə zərrəciyin hansı fiziki xarakteristikasını qiymətləndirmək olar?
A) xüsusi yükünü B) həcmini
C) sürətini D) enerjisini E) sıxlığını


36. Verilmiş sarğacda cərəyan şiddətini 2 dəfə artırdıqda maqnit sahəsinin enerjisi necə dəyişər?
A) 2 dəfə artar B) 2 dəfə azalar C) dəyişməz
D) 4 dəfə azalar E) 4 dəfə artar

37. Bircins maqnit sahəsinə perpendikulyar istiqamətdə daxil olan yüklü zərrəciyin cızdığı çevrənin radiusunun onun yükündən asılılıq qrafiki hansıdır (impuls sabitdir)?



38. Qapalı konturdan keçən maqnit seli 2 san müddətində 10 Vb-dən 4 Vb-ə qədər azaldı. Konturda yaranan induksiya EHQ nəyə bərabərdir?
A) 0,25 V B) 0,75 V C) 3 V D) 8 V E) 2 V


39. Verilmiş kütləli biratomlu ideal qazın təzyiqinin mütləq temperaturdan asılılıq qrafikləri verilmişdir. Hansı proses və ya proseslərdə qazın daxili enerjisi azalır?



A) 1, 2 B) 2, 3 C) 3, 4 D) yalnız 4 E) yalnız 2


40. Eninə dalğanın birinci və altıncı çökəkliyi arasındakı məsafə 15 m-dir. Dalğanın yayılma sürəti 30 m/san olarsa, dalğanın tezliyini hesablayın.
A) 3,3 Hs B) 15 Hs C) 10 Hs D) 0,3 Hs E) 0,9 Hs

41. Diaqrama əsasən hansı nöqtəyə uyğun mühərrikin gücünün qiyməti ən kiçikdir(F – dartı qüvvəsi, υ – cismin sürətidir)?



A) 4 B) 5 C) 3 D) 1 E) 2


42. Eyler-Venn diaqramının hissələrinə uyğun ifadələri müəyyən edin.



1. Skalyar kəmiyyətdir.
2. Vektorial kəmiyyətdir.
3. Dayağın reaksiya qüvvəsindən asılıdır.
4. Toxunan səthin sahəsindən asılı deyil.
5. Toxunan səthin emalından asılıdır.

A) I-1, 5,II-4,III-2, 3 B) I-1,II-4, 5,III-2, 3
C) I-1, 4,II-2, 5,III-3 D) I-2,II-4, 5,III-1, 3
E) I-2, 5,II-3, 4,III-1

43. Doymuş buxarın kütləsinin həcmindən asılılıq qrafiki hansıdır (T=const)?



44. Sxemə əsasən birinci kondensatorun enerjisi W olarsa, 3-cü kondensatorun enerjisi nəyə bərabərdir?



A) $\frac{4}{3}W$ B) $\frac{3}{2}W$ C) W D) $6W$ E) $2W$

45. Açar sözlərdən hansı ardıcıllıqla istifadə etməklə mətni tamamlamaq olar (açar sözlərin bəzilərinə şəkilçi əlavə etməklə istifadə etmək olar)?


Açar sözlər:

1. isladan 2. islatmayan 3. tam islatmayan 4. tam isladan 5. kənar bucaq

Maye səthinə çəkilən toxunanla bərk səth arasındakı maye daxilindən hesablanan bucaq ___ adlanır (θ). Maye molekulları ilə bərk cisim molekulları arasındakı cazibə qüvvəsi maye molekulları arasındakı cazibə qüvvəsindən böyük olarsa maye ___ . $\theta = 0$ olarsa, maye ___ . Maye molekulları ilə bərk cisim molekulları arasındakı cazibə qüvvəsi maye molekulları arasındakı cazibə qüvvəsindən kiçik olarsa maye ___ . $\theta = 180^\circ$ olarsa, maye ___ .


A) 51342 B) 51324 C) 54231 D) 52431 E) 51423

46. Proton hansı istiqamətdə sahəyə daxil olarsa, trayektoriyası düz xətt ola bilər ($\vec{E} \perp \vec{B}$ ağırlıq qüvvəsinin təsiri nəzərə alınmır)?




A) X oxu istiqamətində B) Y oxu ist.
C) Z oxu ist. D) X oxunun əksi ist.
E) Y oxunun əksi ist.

47. Çəkisi P_0 olan lingin tarazlıq şərti hansıdır? (bölgülər arasındakı məsafələr eynidir)



A) $F_1 = P_0 + 3F_2$ B) $F_1 = P_0 + F_2$ C) $F_1 = 2P_0 + F_2$
D) $F_2 = P_0 + 3F_1$ E) $2F_1 = P_0 + F_2$

48. A nöqtəsinin mərkəzəqaçma təcilinin modulu a, xətti sürəti v olarsa, B nöqtəsinin mərkəzəqaçma təcilinin modulu və xətti sürəti nəyə bərabər olar?




A) $4a, 4v$ B) $2a, 2v$ C) $0{,}5a, 0{,}25v$ D) $2a, 0{,}5v$ E) $4a, 2v$

49. F qüvvəsinin təsiri ilə t müddətində cismin impulsu Δp qədər dəyişmişdir. $3F$ qüvvənin təsiri ilə t müddətində bu cismin impulsu nə qədər dəyişər?


A) Δp B) $2\Delta p$ C) $3\Delta p$ D) $6\Delta p$ E) $1{,}5\Delta p$

50. İntensivlik vektorlarının istiqaməti verilmiş yüklərin işarəsini və ədədi qiymətləri arasındakı münasibəti müəyyən edin.

A) $q_1 < 0; q_2 < 0; q_1 > q_2$
B) $q_1 > 0; q_2 < 0; q_1 < q_2$
C) $q_1 > 0; q_2 < 0; q_1 = q_2$
D) $q_1 < 0; q_2 > 0; q_1 > q_2$
E) $q_1 > 0; q_2 < 0; q_1 > q_2$




51. Boş xanalara uyğun ifadələrin ardıcıllığını müəyyən edin (istiqamət soldan sağa və aşağıya doğru).



1. Eninə 2. Uzununa
3. Mexaniki 4. Elektromaqnit

A) 3, 1, 4, 2 B) 4, 2, 3, 1 C) 3, 4, 2, 1
D) 4, 3, 2, 1 E) 4, 1, 2, 3


52. Cismin sferik güzgüdə xəyalı necə alınar?



A) həqiqi və düzünə B) xəyal alınmaz
C) həqiqi və çevrilmiş D) məvhumi və çevrilmiş
E) məvhumi və düzünə

T.me/Birlik_Test


53. Bərabər bölgülü bircins cisim 1-ci mayedə şəkil 1-dəki kimi tarazlıqdadır. Cismə ip vasitəsi ilə eyni həcmli bircins cisim bağlanarsa, şəkil 2-dəki kimi tarazlıqda olar. Cisimlərin sıxlıqlarının (ρ_1/ρ_2) nisbətini hesablayın.



Şəkil 1. Şəkil 2.

54. Periodu 1,2 mkm olan difraksiya qəfəsinin üzərinə ağ işıq normal düşür. Dalğa uzunluğu 0,6 mkm olan şüa üçün birinci tərtib maksimuma uyğun meyl bucağının sinusu nəyə bərabərdir?

55. Hansı ifadələr doğrudur? Reoastatın sürgüsünü sola sürüşdürdükdə:




1. A ampermetrinin göstərişi artar.
2. A ampermetrinin göstərişi dəyişməz.
3. A_1 ampermetrinin göstərişi azalar.
4. A_1 ampermetrinin göstərişi dəyişməz.
5. A_2 ampermetrinin göstərişi artar.
6. A_2 ampermetrinin göstərişi dəyişməz.

56. Fotoeffekt zamanı katod üzərinə düşən işığın intensivliyi sabit qalır, tezliyi isə azalır. Hansı ifadələr doğrudur?


1. Ləngidici gərginlik .
2. Elektronların metaldan çıxış işi dəyişmir.
3. Fotoelektronların maksimal impulsu artır.
4. Fotoelektronların maksimal sürəti azalır.
5. Fotoelektronların maksimal kinetik enerjisi azalır.

57. Rəqs konturunda kondensatordakı yükün zamandan asılılıq qrafiki verilmişdir.




1. Sarğacdan keçən maqnit selinin
2. Sarğacın maqnit sahəsinin enerjisinin
3. Kondensatordakı elektrik sahəsinin enerjisinin

zamandan asılılıq qrafikini təyin edin.



Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 58-60 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Fizika dərsi zamanı müəllim hündürlüyü 10sm olan cismi linzanın fokusu il ikiqat fokusu arasında yerləşdirdi:



58. Linzada xəyalın həqiqi, yoxsa mövhumi, böyüdülmüş, yoxsa kiçildilmiş və düzünə, yoxsa tərsinə alındığını müəyyən edin?

59. Linzanın fokus məsafəsi 10 sm və cisim məsafəsi 50 sm olarsa, xəyal məsafəsini hesablayın (sm ilə).

60. Cismin linzada alınan xəyalının hündürlüyü neçə sm-dir?

Test Bir Tək Team

KİMYA

61. Hansı maddə sirkə turşusu ilə reaksiyaya daxil olur?
A) K_2SO_4 B) CH_3OH C) Cu D) $NaNO_3$ E) Ag

62. Stirol üçün hansı ifadələr doğrudur?
1. polimerləşir 3. benzolun homoloqudur
2. suda həll olur 4. bromlu suyu rəngsizləşdirir
A) 1, 4 B) 1, 2 C) 2, 4 D) 2, 3 E) 3, 4

63. Doymuş birəsaslı karbon turşusunun molekulunda 14 atom var. Bu turşunu müəyyən edin.
A) yağ turşusu B) asetat turşusu
C) propion turşusu D) valerian turşusu
E) qarışqa turşusu

64. Bir mol tripeptidin hidrolizinə neçə mol su lazımdır?
A) 3 B) 1 C) 2 D) 0,5 E) 1,5

65. Fruktoza üçün nə doğrudur?
1. Qlükozanın izomeridir
2. Monosaxariddir
3. Suda həll olmur
A) yalnız 1 B) 1, 2 C) yalnız 3
D) 2, 3 E) yalnız 2

66. Doymuş biratomlu spirt molekulunda karbon atomlarının sayı atomların ümumi sayının 25%-ni təşkil edir. Spirt molekulunda neçə hidrogen atomu var?
A) 5 B) 8 C) 6 D) 10 E) 7

67. Duzun suda məhlulunda $m_{duz} : m_{su} = 2:3$ olarsa, həll olan maddənin kütlə payını (%-lə) hesablayın.
A) 35 B) 60 C) 80 D) 50 E) 40

68.

1 mol maddə	Tam reduksiyasına sərf olunan H_2-nin mol sayı
Fe_2O_3	x
Fe_3O_4	y

x və y-i müəyyən edin.
A) x-1, y-3 B) x-3, y-2 C) x-4, y-3
D) x-3, y-4 E) x-2, y-4

69. 2-metilpropen molekulunda neçə σ (siqma)- rabitə sp^2- və sp^3- hibrid orbitalların bir-birini örtməsi ilə yaranır?
A) 1 B) 3 C) 2 D) 7 E) 8


70. Metilamin hansı maddələrlə reaksiyaya daxil ***olmur***?
1. Xlorid turşusu 2. Natrium-hidroksid
3. Oksigen 4. Kalium-sulfat 5. Bromlu su
A) 1, 3, 5 B) 1, 4 C) 2, 4 D) 2, 4, 5 E) 1, 2, 3

71. Hansı duzun suda məhlulunun elektrolizindən məhlulda qələvi alınır?
A) $Ca(NO_3)_2$ B) Na_2S C) K_2SO_4
D) Na_2CO_3 E) KNO_3

72. Hansı spirtdən alınan sadə efir molekulunda 21 atom var?
A) heksanol-1 B) pentanol-2 C) butanol-1
D) propanol-2 E) etanol

73. spirt $\xleftarrow{I}$ aldehid $\xrightarrow{II}$ karbon turşusu
I və II prosesləri müəyyən edin.
A) I - oksidləşmə, II - reduksiya
B) I - hidroliz, II - hidrogenləşmə
C) I - hidrogenləşmə, II - hidroliz
D) I - reduksiya, II - oksidləşmə
E) I - oksidləşmə, II - hidrogenləşmə

74.



X və Y maddələrini müəyyən edin.
A) X - Cl2, Y- H2 B) X - Mg, Y- O2 C) X - Al, Y- H2
D) X - Al, Y- O2 E) X - Mg, Y- H2

Tme/Bilikteam1

75. Mürəkkəb efirləri göstərin.
A) CH_3COOCH_3, CH_3NO_2 B) $HCOOC_2H_5$, CH_3OCH_3
C) CH_3COOH, CH_3COOCH_3 D) $HCOOCH_3$, C_2H_5ONO
E) CH_3COOCH_3, $CH_3COC_2H_5$

76. $X + 3O_2 \longrightarrow 2CO_2 + 3H_2O$
X hansı maddələr ola bilər?
1. etil spirti 2. etan 3. metiletil efiri 4. dimetil efiri
A) 1, 3 B) 1, 4 C) 3, 4 D) 2, 3 E) 2, 4

77. $Al(OH)_3 \xrightarrow[-3H_2O]{+1\ mol\ HCl\ +\ 2\ mol\ HBr} X$
X duzunun tipini müəyyən edin.
A) normal B) ikiqat C) əsasi D) turş E) qarışıq

78. Metiletilamin üçün hansı ifadə doğru ***deyil***?
A) qaz haldadır (n.ş.) B) birli amindir
C) əsasi xassəlidir
D) xlorid turşusu ilə reaksiyaya daxil olur
E) havada yanır

79.

Metal	Əmələ gətirdiyi duzun nisbi molekul kütləsi	
	Xlorat turşusu ilə	Hipoxlorit turşusu ilə
Ca	*a*	*b*

a – *b* fərqini hesablayın. $A_r(O)=16$
A) 80 B) 64 C) 32 D) 16 E) 48

80. Hansı şüşənin tərkibində qurğuşun atomu var?
1. adi pəncərə şüşəsi 2. çətinəriyən şüşə
3. büllur şüşə
A) yalnız 1 B) 2, 3 C) yalnız 3 D) 1, 2 E) yalnız 2

81. $S^{+6} \longrightarrow S^{-2}$ reduksiya prosesi gedən reaksiya:
A) $Fe + H_2SO_{4(duru)} \longrightarrow$ B) $C + H_2SO_{4(qatı)} \longrightarrow$
C) $Zn + H_2SO_{4(duru)} \longrightarrow$ D) $S + H_2SO_{4(qatı)} \longrightarrow$
E) $Na + H_2SO_{4(qatı)} \longrightarrow$

82. Karbol turşusunun formulunu göstərin.
A) C_2H_5OH B) CH_3COOH C) C_6H_5OH
D) C_6H_5COOH E) C_3H_7OH

83.


Maddə	Nisbi molekul kütləsi	Molekulunda hidrogen atomlarının sayı
Doymuş keton	100	*n*

n-i müəyyən edin.

84. 2 *mol* etilen və 1 *mol* metandan ibarət qaz qarışığını bromlu su olan qabdan keçirdikdə qabın kütləsi neçə *qram* artar? $M_r(C_2H_4)=28$, $M_r(CH_4)=16$.

85. Hansı maddələr *"gümüş-güzgü"* reaksiyasına daxil olur?
1. qarışqa turşusu 2. natrium-formiat
3. sirkə turşusu 4. dezoksiriboza

86. Suda məhlulda $MgCl_2$ duzunun dissosiasiyasının qrafikinə əsasən duzun dissosiasiya dərəcəsini hesablayın (%-lə).



87. Uyğunluğu müəyyən edin.
1. Fe a. sulfat duzu suda həll olur
2. Ca b. karbonat duzu suda həll olur
c. alüminotermiya üsulu ilə alınır
d. asanəriyən, yüngül metaldır

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 88-90 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.
Müəllimin tapşırığı ilə şagirdlər laboratoriyada natrium-xlorid məhlulunun elektrolizi təcrübəsini yerinə yetirdilər.

88. Anodda alınan maddənin kimyəvi formulunu yazın.

89. Baş verən reaksiyanın tənliyini yazın və əmsallaşdırın.

90. Elektroliz zamanı katodda 1 *mol* qaz alınarsa, neçə *mol* qələvi əmələ gələr?

Test Bank

SINAQ - 5

RİYAZİYYAT

1. 220 ədədinin natural bölənlərinin sayı $(8x-12)$ yə bərabər olarsa, x-i tapın.
A) 3 B) 2 C) 5 D) 1 E) 7

2. Müqayisə edin: $a = 6{,}76$; $b = 6{,}(76)$; $c = 6{,}7(6)$
A) $a < c < b$ B) $a < b < c$ C) $b < a < c$
D) $c < a < b$ E) $b < c < a$

3. Bucağın təpəsindən çıxan şüa onu dərəcə ölçüləri nisbəti 3:1 kimi olan iki bucağa bölür. Kiçik bucaq 40° olarsa, bucağın dərəcə ölçüsü nəyə bərabər olar?
A) 40° B) 80° C) 120° D) 160° E) 180°

4. $25^5 \cdot 8^4$ ədədi neçə rəqəmlidir?
A) 8 B) 9 C) 10 D) 12 E) 11

5. $\frac{n+5}{12}$ düzgün kəsr olduğuna görə, n-in mümkün natural qiymətlərinin cəmini tapın.
A) 21 B) 28 C) 15 D) 22 E) 20

6. $a = 0{,}1(7)$ və $b = 0{,}1(5)$ olarsa, $\frac{8}{a} + \frac{7}{b}$ cəmini tapın.
A) 32 B) 42 C) 45 D) 84 E) 90

7. Bir fəhlə işi 6 saata, digəri isə 7 saata görür. İkisi birlikdə 3 *saat* işləsələr, işin hansı hissəsi ***görülməmiş*** qalar?
A) $\frac{13}{14}$ B) $\frac{11}{14}$ C) $\frac{6}{7}$ D) $\frac{1}{7}$ E) $\frac{1}{14}$

8. $\overline{19265a}$ ədədinin 18-ə qalıqsız bölünməsi üçün a neçə olmalıdır?
A) 4 B) 8 C) 6 D) 2 E) 0

9. a bucağı ilə qarşılıqlı olan bucaq 80°-dir. a bucağı ilə qonşu olan bucaq neçə dərəcədir?
A) 80° B) 100° C) 110° D) 120° E) 140°

10. $7 < x < y < 11$ şərtini ödəyən x və y natural ədədləri üçün $\frac{2x+2y+26}{x+y}$ ifadəsinin ən kiçik qiymətini tapın.
A) 9 B) 8 C) 17 D) 11 E) 15

11. 1,13(6) dövrü onluq kəsrini adi kəsrə çevirin.
A) $1\frac{41}{300}$ B) $1\frac{13}{100}$ C) $1\frac{14}{100}$ D) $1\frac{43}{300}$ E) $1\frac{21}{150}$

12. a-nın hansı ən böyük qiymətində $\frac{a}{20}$ kəsri düzgün, $\frac{a}{15}$ kəsri isə düzgün olmayan kəsr olar?
A) 17 B) 16 C) 18 D) 19 E) 15

13. Uyğun tərəfləri paralel olan bucaqlardan biri digərindən 3 dəfə böyük olarsa, bu bucaqların fərqini tapın.
A) 120° B) 80° C) 100° D) 110° E) 90°


14. ƏBOB(36; 144) qiymətinin rəqəmləri fərqinin modulunu tapın:
A) 17 B) 3 C) 6 D) 9 E) 36

15. Malın maya dəyəri $(3b - 10)$ manat, satış qiyməti isə $(2b + 5)$ manatdır. Malın 25% qazancla satıldığını bilərək, b-ni tapın.
A) 5 B) 20 C) 15 D) 12 E) 10

16. $36 : 7 = x : 21$ tənasübündən x-i tapın.
A) $\frac{12}{49}$ B) $\frac{49}{12}$ C) 12 D) 84 E) 108

17. $x = 2^a \cdot 3^b \cdot 5^c$ və $y = 2^b \cdot 3^c \cdot 5^a$ olarsa, ƏKOB$(x; y)$-i tapın. $(a < b < c)$
A) $10^a \cdot 3^b$ B) $2^b \cdot 15^c$ C) $3^b \cdot 10^c$
D) $15^b \cdot 2^a$ E) $3^a \cdot 15^c$

18. $d_1 \parallel d_2 \parallel d_3$,
$\angle DCE = 72^0$
$\angle EFK = 38^0$
$\angle ABE = \alpha = ?$



A) 17 B) 22 C) 34 D) 9 E) 15

T.me/BilikTeam1

SINAQ - 5

RİYAZİYYAT

1. 220 ədədinin natural bölənlərinin sayı $(8x-12)$-yə bərabər olarsa, x-i tapın.
A) 3 B) 2 C) 5 D) 1 E) 7

2. Müqayisə edin: $a = 6{,}76$, $b = 6{,}(76)$; $c = 6{,}7(6)$
A) $a < c < b$ B) $a < b < c$ C) $b < a < c$
D) $c < a < b$ E) $b < c < a$

3. Bucağın təpəsindən çıxan şüa onu dərəcə ölçüləri nisbəti 3:1 kimi olan iki bucağa bölür. Kiçik bucaq 40° olarsa, bucağın dərəcə ölçüsü nəyə bərabər olar?
A) 40° B) 80° C) 120° D) 160° E) 180°

4. $25^5 \cdot 8^4$ ədədi neçə rəqəmlidir?
A) 8 B) 9 C) 10 D) 12 E) 11

5. $\frac{n+5}{12}$ düzgün kəsr olduğuna görə, n-in mümkün natural qiymətlərinin cəmini tapın.
A) 21 B) 28 C) 15 D) 22 E) 20

6. $a = 0{,}1(7)$ və $b = 0{,}1(5)$ olarsa, $\frac{8}{a} + \frac{7}{b}$ cəmini tapın.
A) 32 B) 42 C) 45 D) 84 E) 90

7. Bir fəhlə işi 6 saata, digəri isə 7 saata görür. İkisi birlikdə 3 *saat* işləsələr, işin hansı hissəsi ***görülməmiş*** qalar?
A) $\frac{13}{14}$ B) $\frac{11}{14}$ C) $\frac{6}{7}$ D) $\frac{1}{7}$ E) $\frac{1}{14}$

8. $\overline{19265a}$ ədədinin 18-ə qalıqsız bölünməsi üçün a neçə olmalıdır?
A) 4 B) 8 C) 6 D) 2 E) 0

9. a bucağı ilə qarşılıqlı olan bucaq 80°-dir. a bucağı ilə qonşu olan bucaq neçə dərəcədir?
A) 80° B) 100° C) 110° D) 120° E) 140°

10. $7 < x < y < 11$ şərtini ödəyən x və y natural ədədləri üçün $\frac{2x+2y+48}{x+y}$ ifadəsinin ən kiçik qiymətini tapın.
A) 9 B) 8 C) 17 D) 11 E) 15

11. $1{,}13(6)$ dövrü onluq kəsrini adi kəsrə çevirin.
A) $1\frac{41}{300}$ B) $1\frac{13}{100}$ C) $1\frac{14}{100}$ D) $1\frac{43}{300}$ E) $1\frac{21}{150}$

12. a-nın hansı ən böyük qiymətində $\frac{a}{20}$ kəsri düzgün, $\frac{a}{15}$ kəsri isə düzgün olmayan kəsr olar?
A) 17 B) 16 C) 18 D) 19 E) 15

13. Uyğun tərəfləri paralel olan bucaqlardan biri digərindən 3 dəfə böyük olarsa, bu bucaqların fərqini tapın.
A) 120° B) 80° C) 100° D) 110° E) 90°


14. ƏBOB(36; 144) qiymətinin rəqəmləri fərqinin modulunu tapın:
A) 17 B) 3 C) 6 D) 9 E) 36

15. Malın maya dəyəri $(3b - 10)$ manat, satış qiyməti isə $(2b + 5)$ manatdır. Malın 25% qazancla satıldığını bilərək, b-ni tapın.
A) 5 B) 20 C) 15 D) 12 E) 10

16. $36 : 7 = x : 21$ tənasübündən x-i tapın.
A) $\frac{12}{49}$ B) $\frac{49}{12}$ C) 12 D) 84 E) 108

17. $x = 2^a \cdot 3^b \cdot 5^c$ və $y = 2^b \cdot 3^c \cdot 5^a$ olarsa, ƏKOB$(x; y)$-i tapın. $(a < b < c)$
A) $10^a \cdot 3^b$ B) $2^b \cdot 15^c$ C) $3^b \cdot 10^c$
D) $15^b \cdot 2^a$ E) $3^a \cdot 15^c$

18. $d_1 \parallel d_2 \parallel d_3$,
$\angle DCE = 72^0$
$\angle EFK = 38^0$
$\angle ABE = \alpha = ?$



A) 17 B) 22 C) 34 D) 9 E) 15

T.me/Biliktəm1


19. $\overline{a4b}$ üçrəqəmli ədədi 12-yə tam bölünür. Buna görə, a neçə fərqli qiymət ala bilər?

A) 7 B) 6 C) 9 D) 8 E) 10

20. Hesablayın: $1+\dfrac{1}{1+\dfrac{1}{3}}$

A) $\frac{4}{3}$ B) $\frac{4}{7}$ C) $\frac{3}{4}$ D) $\frac{5}{3}$ E) $\frac{7}{4}$

21. Şəkildə $d_1 \parallel d_2$ olarsa, x bucağını tapın.




A) 20° B) 40° C) 30° D) 60° E) 80°

22. 14-dən böyük, 25-dən kiçik olan və 4-ə tam bölünən ədədləri göstərin.

A) {18; 21; 24} B) {15; 21; 24} C) {15; 18; 21}
D) {16; 18; 24} E) {16; 20; 24}

23. AB parçası daxilində C, D, E, M və N nöqtələri qeyd olunmuşdur. Ümumi parçaların sayını tapın.




24. $\overline{abc}$ ədədini 25-ə böldükdə qalıqda 5 alınır. $\overline{abc}$ ədədi 9-a tam bölünürsə, a-nın ala biləcəyi qiymətlərin cəmini tapın.

25. Sexdə olan dəzgahların 44%-ni təmir etdikdən sonra təmir olunmamış 280 dəzgah qaldı. Sexdə cəmi neçə dəzgah olduğunu tapın.

26. Dairəvi diaqramda yarmarkada gün ərzində satılmış meyvələrin faizlə diaqramı verilmişdir. Ümumi satılan meyvələrin 33%-ni alma, 30%-ni nar, 25%-ni portağal, 12%-ni isə armud təşkil edir. Cəmi 200 *kq* meyvə satıldığı məlumdursa, satılan almanın miqdarının digər meyvələrin miqdarından neçə *kq* az olduğunu tapın.



27. Şəkildə $AB \parallel CD \parallel MN$ və KM tənbölən olarsa, uyğunluğu müəyyən edin.




1. $\alpha = 70°$
2. $\alpha = 80°$
3. $\alpha = 75°$

a. $x = 100°$
b. $x = 130°$
c. $x = 120°$
d. $x = 110°$
e. $x = 140°$

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 28-30 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Birinci qabda 50 litr a%-li məhlul, ikinci qabda isə 60 litr b%-li duz məhlulu var.



28. Birinci qabdakı məhlulun tərkibində 10 *q*, ikinci qabdakı məhlulun tərkibində isə 18,6 *q* duz var. Bu məhlullar ayrı bir qaba tökülüb qarışdırıldı. Alınan məhlulun duzluluq faizini tapın.

29. Alınan məhlulun üzərinə 20 *q* su əlavə edildi. Məhlulun duzluluq faizi x% olmuşdur. x ədədini tapın.


30. x%-li məhluldan 30 *qramı* atılıb qalan məhlulun üzərinə 100 *qram* su əlavə olunarsa, məhlulun duzluluq faizi nə qədər olar?

Time Birlik Team

Sınaq 5

FİZİKA

31. Disk mərkəzindən keçən ox ətrafında saat əqrəbi istiqamətində fırlanır. A nöqtəsində xətti sürətin istiqamətini təyin edin.




A) 1 B) 2 C) 3 D) 4 E) 5

32. Saatın saat əqrəbinin dövretmə periodu nə qədərdir?

A) 24 saat B) 36 saat C) 360 dəq
D) 12 saat E) 60 dəq

33. Düzxətli hərəkət edən 2 *kq* kütləli cismin sürətinin proyeksiya-zaman qrafiki verilmişdir. Cismə təsir edən əvəzləyici qüvvənin proyeksiyasını hesablayın.



A) 4 N B) –4 N C) 6 N D) –10 N E) 10 N

34. X oxu istiqamətində bərabəryeyinləşən hərəkət edən cismin koordinat tənliyi hansıdır?

A) $x=8+6t+2t^2$ B) $x=2-2t-t^2$
C) $x=-2-2t-t^2$ D) $x=2t^2-4t$
E) $x=4t^2-2t+2$


35. $72\ \frac{km}{saat}$ sürəti $\frac{m}{san}$ ilə ifadə edin.

A) 5 m/san B) 25 m/san C) 10 m/san
D) 35 m/san E) 20 m/san

36. Radiusu 30 *sm* olan çevrə üzrə bərabərsürətli hərəkət edən maddi nöqtənin bucaq sürəti 2 *rad/san*-dir. Onun xətti sürətini hesablayın.

A) 0,6 m/san B) 0,3 m/san C) 0,9 m/san
D) 1,2 m/san E) 1,9 m/san

37. O nöqtəsi ətrafında bərabərsürətlə fırlanan diskin 1 və 2 nöqtələri üçün hansı fiziki kəmiyyətlərin qiymətləri müxtəlifdir?




1. dövretmə periodunun 2. dövretmə tezliyinin
3. xətti sürətin 4. mərkəzəqaçma təcilinin

A) 1, 2 B) 1, 3 C) 3, 4 D) yalnız 4 E) yalnız 2

38. Maddi nöqtə R radiuslu çevrə üzrə bərabərsürətli hərəkət edir. $t = T/6$ müddətdə nöqtənin yerdəyişməsinin modulunu hesablayın. (T – dövretmə periodudur)


A) $\sqrt{2}R$ B) $2R$ C) 0 D) R E) $3R$

39. Düzxətli hərəkət edən cismin koordinat-zaman qrafikinə (parabola) əsasən arabacığa təsir edən əvəzləyici qüvvənin istiqamətini müəyyən edin.




A) 1 B) 2 C) 3 D) 4 E) 5


40. $m_1 = 2$ *kq* və $m_2 = 3$ *kq* kütləli kürələri $F = 20$ *N* qüvvənin təsiri ilə sürtünməsiz hərəkət edir. İkinci cismin birinciyə təsir etdiyi qüvvənin modulunu hesablayın.





A) 20 N B) 18 N C) 8 N D) 15 N E) 12 N


41. Düzxətli bərabərsürətli hərəkətdə cismin sürətinin proyeksiyasının zamandan asılılıq qrafiki hansıdır?

A)


B)


C)


D)


E)


T.me/Bilikkan1

42. Hansı halda avtomobillə bağlı hesablama sistemini inersial hesab etmək olar?
Avtomobil üfüqi şosedə:
1. Bərabərsürətlə döngəni dönür.
2. Düzxətli bərabərsürətli hərəkət edir.
3. Düzxətli bərabəryavaşıyan hərəkət edir.
4. Düzxətli bərabəryeyinləşən hərəkət edir.
A) 1, 2 B) 1, 3 C) 3, 4
D) yalnız 4 E) yalnız 2


43. Vahid zamanda ədədi qiymətcə dövrlərin sayına bərabər olan kəmiyyət necə adlanır?
A) bucaq sürəti B) mərkəzəqaçma təcili
C) xətti sürət D) dövretmə tezliyi
E) dövretmə periodu

44. $\frac{kq \cdot m}{san^2}$ ifadəsi hansı fiziki kəmiyyətin vahididir?
A) sürətin B) təcilin C) yerdəyişmənin
D) zamanın E) qüvvənin

45. Vektorial fiziki kəmiyyət hansıdır?
A) yol B) sıxlıq C) həcm D) sürət E) zaman

46. Bircins cismin sıxlığı hansı ifadə ilə təyin olunur?(m – cismin kütləsi, V – həcmidir)
A) $\frac{V}{m}$ B) $\frac{m}{V}$ C) $\frac{m^2}{2V}$ D) mV E) mV^2


47. Düzxətli hərəkət edən cismin sürətinin proyeksiyasının zamandan asılılıq qrafiki verilmişdir. Cisim hərəkət istiqamətini neçə dəfə dəyişmişdir?



A) 1 B) 2 C) 3 D) 4 E) 5


48. Qüvvəni ölçən cihaz hansıdır?
A) saniyəölçən B) tərəzi C) menzurka
D) dinamometr E) spidometr

49. Şəkildə çayın sahilinin O nöqtəsindən sabit sürətlə üzməyə başlayan iki üzgüçünün suya nəzərən sürət vektorları və çayın axınının $\vec{v_ç}$ sürət vektoru təsvir olunmuşdur. Hansı ifadələr doğrudur? (bölgülər arasındakı məsafələr eynidir)




1. K üzgüçüsü qarşı sahilə A nöqtəsindən çıxar.
2. L üzgüçüsü qarşı sahilə B nöqtəsindən çıxar.
3. K üzgüçüsü qarşı sahilə t müddətində çatarsa, L üzçgüçüsü $\frac{t}{2}$ müddətində çatar.
4. Üzgüçülərin sahilə nəzərən sürətlərinin modulları eynidir.
A) 1, 4 B) 2, 3 C) 1, 3 D) yalnız 2 E) yalnız 4

50. Verilmiş radiuslu çevrə üzrə bərabərsürətli hərəkətdə mərkəzəqaçma qüvvəsinin dövretmə periodundan asılılıq qrafiki hansıdır? (m=const)



51. İki cismin hərəkət tənliyi uyğun olaraq $x_1 = 2t + 6$ (m) və $x_2 = 8t - 12$ (m) şəklindədir. Cisimlərin görüş yerinin koordinatını müəyyən edin.
A) 6 m B) 12 m C) 24 m D) 18 m E) 10 m


52. Çevrə üzrə bərabərsürətli hərəkətdə xətti sürətin çevrənin radiusundan asılılıq diaqramında hansı nöqtəyə uyğun gələn dövretmə tezliyi ən böyükdür?



A) 5 B) 4 C) 3
D) 2 E) 1


Fizika Birlik Team

53. Yüklərin kütlələri nisbəti $m_1/m_2 = 3$ olarsa, sistemin təcilini *m/san²* ilə hesablayın. ($g = 10$ *m/san²*, sürtünmə nəzərə alınmır)



54. Saatın 1 *sm* uzunluqlu saat əqrəbinin uc nöqtəsinin 6 *saat* ərzində getdiyi yolu hesablayın. (cavabı *sm* ilə ifadə edin, π=3)


55. Hansı ifadələr doğrudur?
Qayışlı ötürmə ilə fırladılan disklərin üzərindəki 1, 2 və 3 nöqtələrinə uyğun xətti sürətləri (υ) və mərkəzə qaçma təcilləri (a) arasında hansı münasibət doğrudur?



1. $\upsilon_1 = \upsilon_2 > \upsilon_3$ 2. $\upsilon_1 = \upsilon_2 < \upsilon_3$
3. $\upsilon_1 = \upsilon_3 > \upsilon_2$ 4 $a_1 > a_2 > a_3$
5. $a_1 > a_2 = a_3$ 6. $a_1 = a_3 < a_2$


56. Açar sözlərdən hansı ardıcıllıqla istifadə etməklə mətni tamamlamaq olar? (açar sözlərin bəzilərinə şəkilçi əlavə etməklə istifadə etmək olar)
Açar sözlər: 1 – trayektoriya, 2 – maddi nöqtə, 3 – yerdəyişmə, 4 – yol
Verilən şəraitdə ölçüləri nəzərə alınmayan cisim ___ adlanır. Bu cismin hərəkəti zamanı cızdığı xətt ___ adlanır. Trayektoriyanın uzunluğuna ___ deyilir. Cismin hərəkət trayektoriyasının başlanğıc və son nöqtələrini birləşdirən istiqamətlənmiş düz xətt parçasına ___ deyilir.

57. Düzxətli hərəkət edən cismin yerdəyişməsinin proyeksiyasının zamandan asılılıq qrafikləri verilmişdi. Qrafiklər arasında uyğunluğu müəyyən edin. (a_x – cismin təcilinin, v_x – sürətinin proyeksiyasıdır)



Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 58-60 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Başlanğıc anda sükunətdə olan 4 kq kütləli cisimə şəkildəki kimi iki qüvvə təsir edir. (Sürtünmə qüvvəsi nəzərə alınmır, F_1 = 8 N, F_2 = 2 N-dir)



58. Cisim hansı istiqamətdə hərəkət edər? (*Ox* oxu və ya əksinə) Cavabınızı əsaslandırın.

59. Cismin təcilini hesablayın. (*m/san²* ilə)

60. Cismin ilk 8 *san* ərzində yerdəyişməsini hesablayın. (*metr* ilə)

Time/Birlik Team

KİMYA

61.

Maddələr	İon rabitələrinin mol sayı
$Al_2(SO_4)_3$	n
NH_4Cl	m

$m + n$ cəmini müəyyən edin.

A) 4 B) 7 C) 8 D) 5 E) 9

62. XY + ZT → XT+ ZY sxeminə uyğun reaksiya tənliyini müəyyən edin.

A $MgO+2HCl \longrightarrow MgCl_2+ H_2O$

B) $2AgNO_3 \longrightarrow 2Ag + 2NO_2 + O_2$

C) $Fe + Cl_2 \longrightarrow FeCl_3$

D) $CuSO_4 + Mg \longrightarrow MgSO_4 + Cu$

E) $Na + 2HCl \longrightarrow 2NaCl + H_2$

63.

İonlar	Elektron sayı	Proton sayı
X^{4-}	18	a
Y^{2+}	10	b

$a + b$ cəmini hesablayın.


A) 25 B) 30 C) 32 D) 24 E) 22

64. X^{+3} ionunda elektronların sayı $_{16}S^{-2}$ ionunda olan elektronların sayından 6 vahid azdır. X atomunun qısa elektron formulunu müəyyən edin.

A) $...3s^23p^5$ B) $...3d^{10}4s^1$ C) $...3d^24s^2$

D) $...3s^23p^3$ E) $...2s^22p^6$

65. Y-in nisbi atom kütləsi 40 olarsa, X-in nisbi atom kütləsini müəyyən edin.



A) 35 B) 16 C) 52

D) 48 E) 3

66. 2,2 q CO_2 qazı üçün hansı ifadələr doğrudur? $M_r(CO_2)=44$

(N_A – Avoqadro ədədidir.)

1. Həcmi 1,12 litrdir. (n.ş.)
2. 0,1 moldur.
3. $0,1N_A$ sayda oksigen atomu var.

A) yalnız 1 B) 1, 3 C) 2, 3

D) yalnız 3 E) yalnız 2

67.

Elektron formulu	Dövri sistemdə mövqeyi
X	III dövr IVA qrupu

A) $...3s^23p^5$ B) $...3s^23p^1$ C) $...3s^23p^2$

D) $...3d^14s^2$ E) $...3s^23p^4$

68. A_2B birləşməsində elementlərin kütlə nisbəti $m(A):m(B)=7:4$ kimidir. AB_2 birləşməsində elementlərin kütlə nisbətini müəyyən edin.

A) 2:7 B) 7:8 C) 7:16 D) 3:4 E) 21:8

69.

İon	Proton sayı	Elektron sayı
X^n	$a + 3$	$a + 6$

n-i müəyyən edin.

A) +2 B) –3 C) +3 D) +4 E) –4

70.

					X		
		Y			Z		

X, Y, Z elementlərinin ionlaşma enerjilərinin artması ardıcıllığını müəyyən edin.

A) Y, Z, X B) Z, Y, X C) X, Z, Y

D) X, Y, Z E) Y, X, Z

71.

Hadisələr	
Fiziki hadisə	Kimyəvi hadisə
X	Y

1. qıcqırma 2. qaynama
3. elektroliz 4. ərimə

X və Y-i müəyyən edin.

A) X - 1, 3, Y -2, 4 B) X-2, 3, Y- 1, 4 C) X - 2, Y -1, 3, 4

D) X - 2, 4, Y- 1, 3 E) X - 1, 2, Y -3, 4

72.

Maddə	Ərimə temperaturu, °C	Qaynama temperaturu, °C
X	25	70
Y	10	55
Z	95	213

60°C-də maddələrin aqreqat halını müəyyən edin.

A)X-maye,Y-qaz,Z-bərk B)X-qaz,Y-maye,Z-maye

C) X-qaz,Y-maye,Z-bərk D) X-bərk,Y-qaz,Z-maye

E) X-maye,Y-bərk,Z-qaz

Hacı/Birlik Team

73. 5 *mol* NH_3-də olan molekul sayını hesablayın.

A) $6{,}02 \cdot 10^{23}$ B) $6{,}02 \cdot 10^{24}$ C) $1{,}204 \cdot 10^{24}$
D) $3{,}01 \cdot 10^{23}$ E) $3{,}01 \cdot 10^{24}$

74. Ekzotermik prosesi müəyyən edin.

A) qurğuşunun əriməsi
B) yodun sublimasiyası
C) suyun buxarlanması
D) əhəngdaşının parçalanması
E) suyun buxarının kondensləşməsi

75.

